AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

MALİYYƏ SABİTLİYİ HESABATI

2022

I yarımil

Azərbaycan Respublikasının

Mərkəzi Bankı

MALİYYƏ SABİTLİYİ HESABATI*

*** Hesabat 2022-ci ilin iyun ayı məlumatları əsasında hazırlanmışdır.**

ABBREVİATURALAR

AMB – Azərbaycan Respublikasının Mərkəzi Bankı

AİKZF - Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu

ARDNF – Azərbaycan Respublikası Dövlət Neft Fondu

AİB – Asiya İnkişaf Bankı

AVM – Açıq valyuta mövqeyi

BGN – Borcun gəlirə nisbəti

BOKT – Bank olmayan kredit təşkilatı

BSFI - Bank sektorunun kövrəklik indeksi

BVF – Beynəlxalq Valyuta Fondu

DB – Dünya Bankı

DGK – Dövlət Gömrük Komitəsi

DQK – Dövlət qiymətli kağızları

DSK – Dövlət Statistika Komitəsi

DSMF – Dövlət Sosial Müdafiə Fondu

HP – Hodrik Preskott filtri

EİA - Enerji İnformasiya Administrasiyası

FŞ – Fiziki şəxs

f.b. – Faiz bəndi

İEÖ – İnkişaf etmiş ölkələr

İEOÖ – İnkişaf etməkdə olan ölkələr

QİK – Qeyri-işlək kreditlər

QKDK – Qeyri dövlət qiymətli kağızları

HŞ – Hüquqi şəxs

KA – Kapital adekvatlığı

KAƏ – Kapital adekvatlığı əmsalı

MKOS – Mikro, kiçik və orta sahibkarlıq

MV – Milli valyuta

ROA – Aktivlərin gəlirliliyi

ROE – Kapitalın gəlirliliyi

RÜÖA – Risk üzrə ölçülmüş aktivlər

ÜDM – Ümumi daxili məhsul

VKK – Vaxtı keçmiş kreditlər

WEO- Dünya iqtisadiyyat icmalı

XV – Xarici valyuta

Mündəricat

Qısa xülasə 5
Qlobal makroiqtisadi şərait 7
Azərbaycanda maliyyə institutlarının fəaliyyət göstərdiyi makroiqtisadi mühit 12
Bank sisteminə ümumi baxış 17
Bank sistemi üzrə kredit riski 27
Bank sistemi üzrə bazar riski 35
Bank sistemi üzrə likvidlik riski 38
Bank sisteminin mənfəətliliyi 41
Bank sisteminin kapital mövqeyi 46
Bank olmayan kredit təşkilatları 51
Sığorta sektoru 54
Kapital bazarı 65

Qısa xülasə

2022-ci ilin ilk yarımilində dünyada baş verən geosiyasi və geoiqtisadi gərginliklər fonunda təchizat zəncirində yaranmış problemlər, həmçinin enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətlərinin əhəmiyyətli dərəcədə qalxması qlobal inflyasiyanın yüksək səviyyəsini şərtləndirmişdir. Dünya iqtisadiyyatında baş verən proseslər Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməmiş və nəticədə ölkədə inflyasiyanın səviyyəsində artım müşahidə edilmişdir. İnflyasiyanın iqtisadi aktivliyə və əhalinin sosial rifahına mənfi təsirlərinin azaldılması istiqamətində hökumət və AMB tərəfindən həyata keçirilən tədbirlər makroiqtisadi və maliyyə sabitliyini qoruyub saxlamağa imkan vermişdir.

Mürəkkəb geosiyasi və makroiqtisadi proseslər fonunda bank sektorunun xarici şoklara qarşı dayanıqlığı yüksək olmuşdur.

Yarımillik ərzində bank sektorunun kredit risklərində əhəmiyyətli dəyişiklik müşahidə edilməmişdir. Kredit portfelinin keyfiyyəti məqbul səviyyədədir və banklarda adekvat ehtiyat buferi formalaşmışdır. "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydası" və "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"sına edilmiş son dəyişikliklər sektorda kredit risklərinin azalmasına və potensial risklərin neytrallaşmasına yönəlmişdir.

Sektorun yüksək likvidlik buferi və ani likvidlik əmsalının minimum normativdən 2 dəfə çox olması bank sisteminin likvidlik şoklarına qarşı dayanıqlığını artırır.

Sektorun valyuta mövqeyinin normativ tələblər çərçivəsində olması və son illərdə davam edən de-dollarlaşma prosesi sistem üzrə bazar risklərini azaldır.

Bank sektorunun mənfəətlilik göstəricilərinin dinamikası müsbət zonada olmuşdur. Sektorun kapital mövqeyi tələb olunan prudensial normativləri üstələyir və potensial riskləri absorbsiya etmək potensialına malikdir.

Sığorta sektoru üzrə maliyyə göstəricilərində artım dinamikası müşahidə edilmişdir. Bençmark ölkələrlə müqayisədə sığorta sektorunun penetrasiya səviyyəsi aşağı olsa da, adambaşına düşən sığorta haqqı artmışdır. Sığorta sektorunun aktivlərinin ¾ -dən çox hissəsini investisiya portfeli təşkil edir ki, bu da sığorta sektorunun maliyyə sistemində mühüm institusional investor kimi rolunu artırır. Cari ilin ikinci rübündə sığorta sektoru üzrə mənfəətlilik artmışdır. Sektorun kapital mövqeyi tələb olunan prudensial tələbləri üstələyir.

Kapital bazarının iqtisadiyyatın maliyyəyə çıxışının dəstəklənməsində rolunu artırmaq məqsədilə kapital bazarının əməliyyat infrastrukturunun təkmilləşdirilməsi, hüquqi çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması, həmçinin bazarda tələb və təklifin dəstəklənməsi istiqamətində işlər davam etdirilmişdir. Yarımillik ərzində korporativ qiymətli kağızlar bazarı və REPO bazarında müsbət dinamika müşahidə olunmuşdur.

Qlobal makroiqtisadi şərait

2022-ci ilin I yarısında COVİD-19 pandemiyası ilə əlaqədar məhdudiyyətlərin tədricən aradan qaldırılmasına baxmayaraq, geosiyasi risklərin kəskin artması fonunda tədarük zəncirində yaranan problemlər qlobal inflyasiyanın son 20 ilin ən yüksək səviyyəyə çatması ilə nəticələnmişdir. ABŞ və qabaqcıl Avropa ölkələrində inflyasiyanın artımının rekord səviyyəsi, Çində iqtisadi artım tempinin kəskin şəkildə azalması, geosiyasi gərginlik qlobal maliyyə şərtlərinin sərtləşməsinə, həmçinin qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər və risklərin artmasına səbəb olmuşdur.

Qlobal iqtisadiyyatda məcmu tələb və təklif tarazlığının pozulması və mürəkkəb geosiyasi proseslər fonunda qeyri-müəyyənliyin davam etməsi beynəlxalq təşkilatlar tərəfindən iqtisadi gözləntiləri pisləşdirmişdir. Belə ki, BVF tərəfindən 2022-ci ilin aprel ayında 2022-ci il üzrə qlobal iqtisadiyyatda 3.6% artım gözlənilsə də, iyul ayında onun 3.2% olacağı proqnozlaşdırılmışdır. 2022-ci ildə iqtisadi artımın İEOÖ üçün 3.6% və İEÖ üçün isə 2.5% təşkil edəcəyi proqnozlaşdırılır.

Qrafik 1. ÜDM-in artım proqnozları, faizlə



Mənbə: BVF, Dünya İqtisadiyyat İcmalı (WEO) 2022 İyul

2022-ci ilin əvvəlindən etibarən istehlak qiymətləri indeksinin artımı gözləntiləri üstələmişdir. 2022-ci ilin ilk iki rübündə geosiyasi gərginliklər, sanksiyalar və ixrac məhdudiyyətləri dünya ərzaq qiymətlərinin artmasına səbəb olmuşdur. 2022-ci ilin yanvar ayında 1 buşel buğdanın qiyməti 760 ABŞ senti olmuşdur. 2022-ci ilin mart ayında isə bu göstərici 76% artaraq 1340 ABŞ sentinə yüksəlmişdir. BVF-nin məlumatına əsasən, ABŞ-da istehlak qiymətləri indeksi 2022-ci ilin iyun ayında keçən ilə nisbətən 9.1%, Birləşmiş Krallıqda may ayında 9.1% artıb ki, bu da 40 il ərzində bu iki ölkədə inflyasiyanın ən yüksək göstəricisidir. Eyni zamanda Avrozonada iyun ayında inflyasiya 8.6%, İEOÖ-də

isə 9.8% təşkil etmişdir. Yüksək inflyasiyanın əsas səbəbləri enerji və ərzaq məhsullarının yüksək qiymətləri və bir çox sahələrdə tədarük zəncirində yaranmış məhdudlaşmalardır. EİA-nın avqust ayında elan etdiyi proqnozlara əsasən, 2022-ci ildə Brent markalı neftin bir barelinin orta qiyməti 105 ABŞ dolları, 2023-ci ildə isə 95 ABŞ dolları səviyyəsində gözlənilir. Qeyd edək ki, bu proqnozlar fevral ayında EİA tərəfindən edilən proqnozlara nisbətən 2022-ci il üçün 22 ABŞ dolları, 2023-cü il üçün isə 27 ABŞ dollar məbləğinə yüksəlmişdir.

Qrafik 2. Əmtəə qiymətlərinin dəyişməsi, faizlə



Mənbə: BVF, Dünya İqtisadiyyat İcmalı (WEO) 2022 İyul

Ölkə qrupları üzrə fiskal kəsirdə azalma müşahidə edilir, lakin maliyyə şərtlərinin sərtləşməsi İEOÖ-in borc yükünü artırır. Ərzaq məhsulları istehlakının böyük hissəsini təşkil edən və ərzaq idxalından daha çox asılı olan aşağı gəlirli ölkələr ümumi əmtəə qiymətlərinin artımından daha çox təsirlənmişdir. Mərkəzi bankların inflyasiyaya qarşı mübarizə tədbiri olaraq faiz dərəcələrini artırması bütün dünyada maliyyə şərtlərinin daha da sərtləşdirilməsi ilə nəticələnmişdir ki, bu da İEOÖ-in borc yükünü daha da artırır. BVF-nin məlumatlarına əsasən aşağı gəlirli ölkələrin 60%-i dövlət borcu böhranı ilə üzləşir və ya yüksək borc böhranı riskinə məruz qalır. BVF-nin aprel ayında dərc etdiyi proqnozlara əsasən, İEOÖ-də dövlət borcunun ÜDM-də payı 1.3 f.b. artaraq, 67.4% təşkil edəcək. Əsas artımın Asiya ölkələrində olacağı proqnozlaşdırılır.

Cədvəl 1. Fiskal balansın və dövlət borcunun ÜDM-də payı, faizlə

	Fiskal balans				Dövlət borcu			
			Proqnoz				Proqnoz	
	2020	**2021**	**2022**	**2023**	**2020**	**2021**	**2022**	**2023**
Dünya iqtisadiyyatı	**-9.9**	**-6.4**	**-4.9**	**-4.0**	**99.2**	**97.0**	**94.4**	**94.1**
İEÖ	***-10.5***	***-7.3***	***-4.3***	***-2.9***	***123.2***	***119.8***	***115.5***	***113.7***
ABŞ	-14.5	-10.2	-4.8	-4.0	134.2	132.6	125.6	123.7
Avrozona	-7.2	-5.5	-4.3	-2.5	97.3	96.0	95.2	93.4
Yaponiya	-9.0	-7.6	-7.8	-3.5	259.0	263.1	262.5	258.3
İEOÖ	***-9.3***	***-5.3***	***-5.7***	***-5.5***	***64.9***	***66.1***	***67.4***	***69.8***
Asiya	-10.4	-6.6	-7.7	-6.9	68.9	72.9	76.5	79.5
Avropa	-5.6	-1.9	-4.6	-4.8	37.9	36.3	37.1	38.6
Latın Amerikası	-8.8	-4.5	-4.7	-4.2	77.8	72.4	71.7	71.9
Neft istehsalçıları	-7.4	-2.2	0.2	-0.5	58.7	55.6	49.0	49.5

Mənbə: BVF, Fiskal Monitor, 2022 Aprel

Haşiyə 1. Rusiya-Ukrayna hərbi münaqişəsinin maliyyə sabitliyinə təsir kanalları

2022-ci ilin fevral ayından etibarən davam edən Rusiya - Ukrayna münaqişəsi ilə bağlı Rusiyaya qarşı tətbiq edilən sanksiyalar, münaqişənin səbəb olduğu daşınma-logistika problemləri və nəticədə enerji və əmtəə qiymətlərində kəskin artım qlobal maliyyə sabitliyinə riskləri artırır.

Dario Caldara və Matteo Lacoviello tərəfindən hazırlanmış Geosiyasi risk indeksinə[1](GPR) əsasən geosiyasi risklər Rusiya-Ukrayna münaqişəsi fonunda kəskin artmışdır. Qeyd edək ki, indeks aylıq əsasda geosiyasi gərginliklər və onların yaratdığı təhlükələri əhatə edən məqalələrin təhlilinə əsaslanır.

Qrafik 3. Geosiyasi risk indeksi



Mənbə: https://www.matteoiacoviello.com/gpr.htm

Geosiyasi risk indeksinə əsasən cari ilin fevral ayında Rusiya-Ukrayna müharibəsinin başlaması ilə indeksin səviyyəsi kəskin artmışdır ki, bu səviyyə 1991-ci il Körfəz müharibəsi və 2003-cü ildə İraq müharibəsində müşahidə olunan səviyyə ilə müqayisə oluna biləndir.

2022-ci ilin fevral ayından etibarən Rusiya və Ukrayna arasındakı münaqişə müxtəlif kanallarla qlobal maliyyə sisteminə təsir etməkdədir. Münaqişə ilə bağlı tətbiq edilən sanksiyaların indiyədək ölkəmizin bank sisteminə təsiri məhdud olmuşdur. Ümumilikdə, bu münaqişənin səbəb olduğu regional geosiyasi gərginliyin yaratdığı proseslərin maliyyə sisteminin dayanıqlığına potensial təsirini 5 istiqamətdə qruplaşdırmaq olar.

[1] Caldara Dario və Matteo Iacoviello (2022), "Geosiyasi risklərin ölçülməsi," Amerika İqtisadi İcmalı, Aprel, 112(4), səh.1194-1225.

Qrafik 4. Regional geosiyasi risklərin maliyyə sabitliyinə mümkün təsir kanalları



Qlobal inflyasiyanın artması. Geosiyasi proseslərin təsiri ilə yüksələn ərzaq qiymətləri və tədarük zəncirində yaranmış çətinliklər qlobal inflyasiyanın səviyyəsini artırmaqda davam edir. Qlobal ərzaq qiymətlərinin artması idxal kanalı ilə yüksək inflyasiyanın daxili qiymətlərə ötürücülüyünü artırır.

Enerji daşıyıcılarının qiymətinin artması. Mövcud geosiyasi gərginlik nəticəsində qlobal enerji daşıyıcıları bazarında qiymətlərin artımı neft-qaz ixracatçısı olaraq ölkənin tədiyə balansına müsbət təsir göstərir. Enerji qiymətlərindəki artım və Avropaya qaz ixracında potensial artım imkanları ortamüddətli perspektivdə ixracı və fiskal gəlirləri artıra bilər.

Xarici ticarət əlaqələrində pozulmalar. Ölkəmizin Rusiya və Ukrayna ilə sıx ticarət əlaqələri mövcuddur. Hal-hazırda geosiyasi proseslərin bu iki ölkə ilə Azərbaycanın ticarət və iqtisadi əlaqələrə əhəmiyyətli təsiri müşahidə edilmir.

Bank aktivlərinin məruz qaldığı risklər. Yerli bankların sanksiyaya məruz qalan Rusiya banklarında vəsaitlərinin az olması sanksiyaların Azərbaycan bank sisteminin maliyyə dayanıqlığına təsirini məhdudlaşdırır.

Bank əməliyyatlarının icrasında çətinliklər. Rusiya-Ukrayna münaqişəsi nəticəsində banklar müxbir hesablarla əməliyyatların aparılmasında müəyyən maneələrlə üzləşsə də, bu münaqişənin Azərbaycan banklarının müxbir hesablarla əməliyyatlarına təsiri məhdud olmuşdur.

Azərbaycanda maliyyə institutlarının fəaliyyət göstərdiyi makroiqtisadi mühit

Yüksək qlobal inflyasiya və geosiyasi gərginliklər fonunda yaranan qeyri-müəyyənliklərə baxmayaraq 2022-ci ilin ilk yarısında Azərbaycan iqtisadiyyatında artım müşahidə edilmişdir. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına əsasən, 2022-ci ilin yanvar-iyun aylarında ÜDM-in həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 6.2% artaraq nominal olaraq 63.4 mlrd. manat təşkil etmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 0.2%, qeyri neft-qaz sektorunda isə 9.6% artmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 5.7% artaraq, 6304.9 manat təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2022-ci ilin ilk yarısında qeyri-neft sektorunun sahələri üzrə artım tempi müşahidə olunmuşdur.

Qrafik 5. Qeyri-neft sektoru sahələrinin iqtisadi artım tempi



Mənbə: DSK

2022-ci ilin ilk yarısında məşğulluğun səviyyəsi və işçilərin orta aylıq əmək haqları, digər illərin müvafiq dövrünə nisbətən artmışdır. DSK-nın məlumatına əsasən, 2022-ci il yanvar-iyun ayları ərzində ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 28.4 min nəfər və ya 1.7% artaraq 1706.0 min nəfər olmuş, onlardan 903.5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 802.5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

2022-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14.2% artaraq 827.1 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

Qrafik 6. Orta aylıq nominal əməkhaqqının illərin müəyyən dövrünə görə dəyişməsi, manatla



Mənbə: DSK

2022-ci il üzrə dövlət büdcəsinin gəlirləri və xərcləri artırılmışdır. Cari ildə dövlət büdcəsinin gəlirlərinin proqnozla müqayisədə artıq icrası dövlət büdcəsi parametrlərinin cari il üzrə yenilənməsinə əsas yaratmışdır. Belə ki, 29 iyun 2022-ci il tarixində "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliyə uyğun olaraq 2022-ci il üzrə dövlət büdcəsinin xərcləri 2.4 mlrd. manat artaraq 32.3 mlrd. manata çatdırılmışdır. Büdcə xərcləri ilə bağlı yenilənmiş proqnoz qlobal enerji daşıyıcıları və ərzaq məhsullarının qiymətlərində müşahidə edilən kəskin artım, həmçinin milli təhlükəsizliyin daha da gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, əhalinin sosial müdafiəsinin və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bir sıra vacib tədbirlərin maliyyələşdirilməsi zərurəti ilə əlaqədardır. Dövlət büdcəsinin gəlirləri, müxtəlif vergi növlərindən cəlb olunan vəsaitlər olaraq yenilənmiş proqnoza əsasən 2.4 mlrd. manat artaraq 29.2 mlrd. manata çatacaqdır.

Qrafik 7. Dövlət büdcəsinin gəlir və xərcləri, mlrd. manatla



Mənbə: Maliyyə Nazirliyi

Əsas kapitala yönəldilmiş vəsaitin məbləğində artım müşahidə olunmuşdur. DSK-nın məlumatına əsasən, 2022-ci ilin ilk yarısında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 6.3 mlrd. manat və ya 2021-ci il ilin müvafiq dövrü ilə müqayisədə 0.7% çox vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 20.7% azalmış, lakin qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 18.5% artmışdır. Ümumi sərmayənin 74.5%-i daxili mənbələr, 25.5%-i isə xarici mənbələr hesabına formalaşmışdır.

Qrafik 8. Əsas vəsaitə investisiyaların strukturu



Mənbə: DSK

2022-ci ilin ilk yarısı üzrə idxal və ixrac, 2021-ci ilin müvafiq dövrünə nisbətən artmışdır. DGK-in məlumatlarına əsasən, 2022-ci ilin ilk yarısı üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.1 dəfə (9.7 mlrd. ABŞ dolları) artaraq 18.5 mlrd. ABŞ dolları, idxal isə 18.5% (1 mlrd. ABŞ dolları) artaraq 6.4 mlrd. ABŞ dolları təşkil etmişdir. 2022-ci ilin ilk yarısı üzrə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25% artaraq 1.5 mlrd. ABŞ dolları təşkil etmişdir. Ümumi ixracın 92.5%-i (17.1 mlrd. ABŞ dolları) mineral yanacaq və neft məhsulları təşkil etmişdir. Ümumi idxalın 5.2%-i əczaçılıq məhsulları, 9.2%-i yerüstü nəqliyyat vasitələri və 12.2%-i avadanlıq və mexaniki qurğular təşkil etmişdir.

Qrafik 9. İdxal və ixracın dinamikası, mlrd. ABŞ dolları



Mənbə: DGK

Valyuta ehtiyatlarının uzunmüddətli artım dinamikası davam edir. 2016-cı ildən etibarən valyuta ehtiyatlarında müşahidə olunan artım 2022-ci ildə də davam etmişdir. Mərkəzi Bankın valyuta ehtiyatları 2022-ci ilin iyun ayında 7.4 mlrd. dollara çatmışdır. Bütövlükdə, ilin ilk yarısında ölkənin valyuta ehtiyatları son illərin ən yüksək həcminə çatmışdır.

Qrafik 10. Mərkəzi Bankın və Dövlət Neft Fondunun valyuta ehtiyatları, mlrd. ABŞ dolları



Mənbə: AMB

Dünyada artan enerji və ərzaq məhsullarının qiymətləri, o cümlədən tədarük zəncirində yaranmış məhdudiyyətlər, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da inflyasiyaya artırıcı təsir etmişdir. DSK-nın məlumatına əsasən, ölkəmizdə 2022-ci ilin iyun ayında 12 aylıq inflyasiya 14.2%, orta illik inflyasiya isə 12.9% təşkil etmişdir. Baza inflyasiya isə iyun ayında 12 aylıq 10.7%, orta illik isə 9.7% olmuşdur. İnflyasiyanın yüksəlməsinə ərzaq məhsullarının bahalaşması daha çox təsir etmişdir. Belə ki, iyun ayında illik ərzaq inflyasiyası 20.6%, orta illik ərzaq inflyasiyası isə 18.4% təşkil etmişdir. Bununla bərabər, xidmətlərin qiymətində də son bir ildə 10.9% artım müşahidə edilmişdir. Poçt xidmətlərinin qiymətləri 58%, təbii qaz təchizatı xidmətlərinin 42% və elektrik enerjisi təchizatı xidmətlərinin qiymətləri 12.5% artmışdır. Mərkəzi Bank tərəfindən həyata keçirilən monetar siyasət inflyasiyanın hədəf diapozonuna qaytarılmasına yönəldilmişdir. Belə ki, Mərkəzi Bank tərəfindən ilin əvvəlindən etibarən uçot dərəcəsi yüksəldilərək 7.25%-dən 7.75%-ə qaldırılmışdır.

Qrafik 11. Orta illik inflyasiyanın müqayisəsi, faizlə



Mənbə: AMB

Qlobal iqtisadi risklərin artmasına baxmayaraq, Azərbaycanda iqtisadi artım meyilləri və həyata keçirilən məqsədyönlü makroiqtisadi siyasət maliyyə sisteminin fəaliyyət göstərdiyi makroiqtisadi mühitin sabitliyini qoruyub saxlamağa imkan verir.

Bank sisteminə ümumi baxış

Cari ilin birinci yarımili ərzində bank sektorunun əsas göstəricilərində pozitiv dinamika müşahidə edilmişdir. Belə ki, ilin ilk 6 ayı ərzində bank sektoru üzrə mənfəətlilik və likvidlik göstəricilərinin, eyni zamanda sektor üzrə məcmu kapitalın həcminin dinamikası müsbət zonada olmuşdur. Aparılmış təhlillər maliyyə sisteminin xarici şoklara qarşı dayanıqlığının yüksək olduğunu nümayiş etdirir[2].

- Bank sektorunun aktiv və öhdəliklərinin dinamikası

Ötən il iqtisadi artımın bərpası və daxili tələbin genişlənməsi fonunda əhəmiyyətli artım göstərən bank sektorunun balansı 2022-ci ilin ilk yarısında da genişlənməkdə davam etmişdir. Birinci yarımil ərzində bank sektorunun aktivləri 9% (3.5 mlrd. manat) artaraq 41.9 mlrd. manat təşkil etmişdir. Öhdəliklər isə 9.8% (3.3 mlrd. manat) artaraq 36.8 mlrd. manat təşkil etmişdir.

2022-ci ilin ikinci rübünün sonu üzrə bank sektorunun aktivlərinin 40.7%-ni xalis kredit portfeli, 37.3%-ni likvid aktivlər, 22%-ni isə digər aktivlər təşkil edir. Bank sektorunun öhdəlikləri isə əsasən hüquqi şəxslərin depozitləri hesabına formalaşıb. Belə ki, öhdəliklərin 53.3%-i hüquqi şəxslərin depozitləri, 28.2%-ni fiziki şəxslərin depozitləri, 18.5%-ni digər öhdəliklər təşkil edir.

Qrafik 12. Bank sisteminin aktiv və öhdəliklərinin dinamikası, mlrd. manatla



Mənbə: AMB

[2] *Bank sektorunun təhlili bankların prudensial hesabatlığı əsasında aparılmışdır.*

Bank sektorunun aktivlərinin həcmi 2022-ci ildə də müsbət artım tempi göstərməkdə davam edərək pandemiyadan öncəki dövrün tarixi maksimumundan 20% daha yüksək olmuşdur. Bank sektorunun aktivlərinin genişlənməsi əsasən iqtisadi aktivliyin artımı fonunda öhdəliklərin stabil tempdə artımı ilə dəstəklənmişdir. Belə ki, cari ilin birinci yarımili ərzində hüquqi şəxslərin depozitləri 9.5%, fiziki şəxslərin depozitləri isə 14.9% artmışdır. Eyni zamanda, bank sisteminin cəlb etdiyi vəsaitlərin kredit portfelinə transformasiyasında artım müşahidə edilməkdədir. Belə ki, birinci yarımil ərzində kredit portfelində 10% artım müşahidə edilmişdir.

Qrafik 13. Bank sisteminin aktiv və öhdəliklərinin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

- ***Bank sistemində təmərküzləşmə***

Azərbaycan bank sistemində təmərküzləşmə səviyyəsi aşağı və orta təmərküzləşmə sərhədindədir. Təmərküzləşmənin qiymətləndirilməsi üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan Herfindahl-Hirschman İndeksi - HHİ[3] bank sistemində aşağı və orta səviyyəli

Qrafik 14. HHİ indeksi



Mənbə: AMB

[3] HHİ indeksi beynəlxalq təcrübədə bazarlarda rəqabətliliyin səviyyəsi və təmərküzləşməni qiymətləndirmək üçün istifadə olunur. Amerika Birləşmiş Ştatların Ədliyyə departamentinin təcrübəsinə əsasən bu indeks əsasında bazarlar 3 hissəyə ayrılır: aşağı səviyyədə təmərküzləşmiş bazarlar (HHİ<1500), orta səviyyədə təmərküzləşmiş bazarlar (1500<HHİ<2500), yüksək səviyyədə təmərküzləşmiş bazarlar (HHİ>2500). HHI-ın dəyəri 0-10000 arasında dəyişə bilər.

təmərküzləşməni göstərir. Bunun səbəbi sektorda xırda və orta həcmli bankların sayının çox olmasıdır. Belə ki, kredit portfeli, depozit portfeli və aktivlərin sistem üzrə payına görə HHİ müvafiq olaraq 1015, 1805 və 1576 təşkil edir. Bu da kredit portfeli üzrə sektorun aşağı səviyyədə, aktivlər üzrə sektorun orta səviyyədə təmərküzləşmə (1500>) sərhədi ətrafında, depozit portfeli üzrə isə orta səviyyədə təmərküzləşmənin olduğunu göstərir.

BSFI indeksinə əsasən potensial risklərin akkumulyasiyası azalmışdır. Beynəlxalq təcrübədə geniş istifadə olunan BSFI indeksi bank sektorunun dayanıqlığını qiymətləndirir. İndeks özəl sektora verilmiş kreditlər, xarici borc öhdəlikləri və əhalinin əmanətlərinin standart kənarlaşmasının orta qiyməti olaraq müəyyən edilir. İndeksin kəskin dəyişməsi sektorun dayanıqlığına təsir kimi qiymətləndirilir. İqtisadi artımın bərpası və bankların balansının genişlənməsi nəticəsində 2021-ci ilin sonuna sektorun kövrəklik indeksi[4] "0.20" olaraq qiymətləndirildiyi halda 2022-ci ilin birinci yarımilində bank sektorunun xarici borc öhdəliklərinin azalması fonunda indeks "0.11" təşkil etməklə sektorda hərarətlənmənin daha da azaldığını göstərir.

Qrafik 15. BSFI indeksi



Mənbə: AMB

[4]Kövrəklik indeksi [-0.5; və aşağı) aralığında kövrəklik və risklərin reallaşmasının ehtimalının yüksək olması, (-0.5; 0) aralığında bank sistemi orta kövrəklik, (0; 0,5) aralığında bank sisteminin yüksək artım tempi ilə inkişaf etməsi və potensial risklərin akkumulyasiyası, [0.5; və yuxarı) olduqda isə bank sistemində hərarətlənmə və köpüklərin yaranması deməkdir.

- ***Bank sektoru üzrə cəlb olunmuş resurslar***

Bankların öhdəliklərinin 81.5%-i fiziki və hüquqi şəxslərin depozit portfeli təşkil edir. Ötən altı ay ərzində sektorun depozit portfeli 11.3% (3 mlrd. manat) artaraq 30 mlrd. manat təşkil etmişdir. Depozit portfelinin 73.4%-ni tələbli, 26.6%-ni isə müddətli, depozitlər təşkil edir. Sektorun depozit portfelinin əsasən tələbli depozitlər hesabına formalaşması bankların yüksək həcmdə likvid aktiv saxlamasını zəruri edir.

Sektorun əsas maliyyələşmə mənbəyi kimi cari öhdəliklər, xüsusilə də hüquqi şəxslərin depozitləri çıxış edir. Hüquqi şəxslərin depozitlərinin bankların depozit portfelində payı 65.4%, bütövlükdə, öhdəliklərdə payı isə 53.3%-dir. Son altı ay ərzində hüquqi şəxslərin depozitləri 9.5% (1.7 mlrd. manat) artaraq 19.6 mlrd. manat təşkil edib. Bu artımın 88.3%-i tələbli depozitlərin artımı hesabınadır (1.5 mlrd. manat artım). Hüquqi şəxslərin depozitlərinin 88.5%-i (17.4 mlrd. manat) tələbli depozitlər hesabına formalaşmışdır. Hüquqi şəxslərin tələbli depozitlərində konsentrasiya səviyyəsi diqqətdə saxlanılır.

Qrafik 16. Fiziki və hüquqi şəxslərin depozit portfelinin dinamikası, mlrd. manatla



Mənbə: AMB

Bankların əmanət portfelində müsbət dinamika müşahidə edilmişdir. Belə ki, sektor üzrə fiziki şəxslərin depozit portfeli yarımil ərzində 1.4 mlrd. manat (14.9%) artaraq 10.4 mlrd. manat təşkil etmişdir (cəmi depozit portfelinin 34.6%-i). Əmanət portfelində artım əsasən fiziki şəxslərin tələbli depozitləri hesabına olmuşdur. Hazırda, fiziki şəxslərin depozitləri bankların öhdəliklərinin 28%-ni təşkil edir. İlin əvvəli ilə müqayisədə xarici valyutada olan əmanətlərin həcmində azalan trend davam etmişdir. Belə ki, fiziki şəxslərin depozitlərinin dollarlaşma səviyyəsi 0.9 f.b. azalaraq 40.8% təşkil etmişdir. Uzunmüddətli və dayanıqlı maliyyələşmə resursu olan müddətli depozitlərin fiziki şəxslərin cəmi depozitlərində payı 55.3% (5.7 mlrd. manat) təşkil edir.

Qrafik 17. Bank sektoru üzrə cəlb olunmuş vəsaitlərin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

Banklar tərəfindən buraxılan qiymətli kağızlar uzunmüddətli maliyyələşməni təmin edir. Cari ilin iyun ayının sonuna banklar tərəfindən buraxılmış qiymətli kağızların qalıq həcmi 0.88 mlrd. manat təşkil edir ki, bunun yalnız 26%-i subordinasiya borc öhdəlikləridir. Banklar tərəfindən buraxılan qiymətli kağızların 94%-i 5 il və daha çox müddəti əhatə edir.

Sektorun xarici borcu azalmaqda davam edir. 2022-ci ilin ilk yarısında xarici borcun həcmi 17.1% (66 mln. ABŞ dolları) azalaraq 318 mln. ABŞ dolları təşkil etmişdir[5]. Öhdəliklərin strukturunda bankların xarici borcunun payı cəmi 1.5% olmuşdur. Banklar tərəfindən cəlb olunmuş xarici borc ödənişlərinin yalnız 33%-i növbəti 1 ilin payına düşür.

Qrafik 18. Xarici borcun dinamikası, mln. ABŞ dolları



Mənbə: AMB

[5] Xarici borc dedikdə prudensial hesabatlıq əsasında bankların xarici maliyyə institutları və hüquqi şəxslərdən cəlb etdikləri müddətli öhdəliklər nəzərdə tutulur.

- ***Bank sisteminin kreditləşmə fəaliyyəti***

İqtisadi aktivliyin artması bankların kreditləşmə fəaliyyətini dəstəkləmişdir. 2022-ci ilin ilk altı ayı ərzində kredit portfeli 10% (1.7 mlrd. manat) artaraq 18.3 mlrd. manat təşkil etmişdir. Bütövlükdə, kredit portfelinin dinamikası ilə iqtisadi aktivliyin dinamikası arasında korrelyasiya yüksəkdir.

Qrafik 19. Kredit portfeli və ÜDM-in artım tempinin müqayisəsi



Mənbə: AMB

Təhlillər göstərir ki, kredit portfelinin illik artım tempi 2016-cı ildən bu yana ən yüksək səviyyəsinə çatmışdır. Həm biznes, həm də ipoteka portfeli üzrə illik artım tempi son illərin maksimumundadır. İstehlak portfeli üzrə illik artım tempi yüksək olsa da, 2019-cu il səviyyəsindən aşağıdır.

Qrafik 20. Kredit portfelinin illik artım tempinin müqayisəsi



Mənbə: AMB

Sektor üzrə kredit portfelinin 57.2%-i biznes kreditləri, 28.3%-i istehlak kreditləri, 14.5%-i isə ipoteka kreditləri təşkil edir.

2022-ci ilin birinci yarımili ərzində biznes kreditləri portfelinin həcmi 7.6 % (742 mln. manat) artaraq 10.5 mlrd. manat təşkil etmişdir. Yarımil ərzində ipoteka portfeli 10.3%

Qrafik 21. Kredit portfelinin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

(248 mln. manat) artaraq 2.6 mlrd. manata çatmışdır. İpoteka portfelində baş verən artım əsasən dövlət ipoteka proqramı hesabına təmin edilmişdir. Dövr ərzində istehlak kreditləri portfeli 14.9% (671 mln. manat) artaraq 5.2 mlrd. manat təşkil etmişdir.

Qrafik 22. Kredit portfelinin dinamikası, mln. manatla



Mənbə: AMB

İstehlak portfelinin artım dinamikası diqqətdə saxlanılmaqdadır. Həyata keçirilən makroprudensial siyasət istehlak kreditləşməsinin dayanıqlı və sağlam müstəviyə keçirilməsinə yönəldilmiş və bu xüsusda prudensial çərçivədə yeni dəyişikliklər edilmişdir. Cari ilin ikinci rübündə uzunmüddətli HP trendinin istehlak portfelinin ÜDM-ə nisbəti göstəricisini üstələməsi iqtisadi artım tempinin istehlak portfelinin artım tempindən daha yüksək olması ilə izah olunur.

Qrafik 23. İstehlak kreditləri portfelinin ÜDM-ə nisbəti, HP trendi %-lə



Mənbə: AMB

İqtisadiyyatda canlanma biznes kreditlərinə artan tələb ilə müşayiət olunmuşdur. Biznes portfelinin artımı əsasən tikinti (386 mln.manat), ticarət (364 mln.manat) və kənd təsərrüfatı (86 mln.manat) sahələri üzrə baş vermişdir

Qrafik 24. Biznes portfelinin yarımillik dinamikası, mln. manatla



Mənbə: AMB

Cari ilin I yarımili ərzində mikro, kiçik və orta sahibkarların kreditləşməsində müsbət artım trendi davam etmişdir. Belə ki, ilin əvvəli ilə müqayisədə MKOS-lara verilən kreditlərin həcmi 19% artaraq 5.3 mlrd. manata çatmışdır.

Qrafik 25. MKOS subyektlərinə verilən kreditlərin dinamikası, mlrd. manatla



Mənbə: AMB

MKOS subyektlərinin kreditləşməsi əsasən bankların öz vəsaitləri hesabına təmin olunur. Son illər bankların öz vəsaitləri hesabına MKOS subyektlərinin maliyyələşməsində aktiv iştirakı müşahidə edilir. Belə ki, cari ilin əvvəlindən bankların öz vəsaiti hesabına verilmiş kreditlərin həcmi 23% (839 mln. manat) artaraq 4.6 mlrd. manata çatmışdır. Bununla bərabər, MKOS subyektlərinin maliyyə çıxışının artırılmasında dövlət dəstək mexanizmlərinin böyük əhəmiyyəti vardır. MKOS-lara dövlət dəstəyi mexanizmlərinin effektivliyi, ünvanlılığı və şəffaflığının gücləndirilməsi və maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi ilə bağlı tədbirlər planı "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında" da öz əksini tapmışdır.

Qrafik 26. MKOS subyektlərinə verilmiş kreditlərin maliyyələşmə mənbələrinə görə strukturu



Mənbə: AMB

Bank sektoru üzrə əsas risklər makroiqtisadi mühitdən qaynaqlanır.

Qrafik 27. Bank sisteminin risk xəritəsi



Mənbə: AMB

Makroiqtisadi risklər:

Yarımil ərzində iqtisadi aktivliyin artımı müşahidə edilsə də, mürəkkəb geosiyasi proseslərin yaratdığı qeyri-müəyyənlik və qlobal inflyasiya maliyyə sabitliyi üçün əsas makroiqtisadi riskləri təşkil etməkdədir. Bununla bərabər, həyata keçirilən adekvat monetar və fiskal siyasət maliyyə sisteminin fəaliyyət göstərdiyi makroiqtisadi mühitin sabitliyini qoruyub saxlamağa imkan verir.

Kredit riskləri:

Kredit riskləri məqbul və idarəolunan səviyyədə olsa da, həssaslıq zonaları qalmaqdadır. Belə ki, portfelin keyfiyyəti, ehtiyatlanma səviyyəsi, restrukturizasiya edilmiş portfel və borcalanların borc yükü diqqətdə saxlanılmaqdadır.

Gəlirlilik mövqeyi:

Mürəkkəb makroiqtisadi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, bank sektorunun mənfəətlilik generasiyası imkanları artmışdır. Mənfəətliyin sektor üzrə bərabər paylanması və qeyri-faiz xərclərinin artım tempi diqqətdə saxlanılmaqdadır.

Bazar riskləri:

Bank sektoru üzrə açıq valyuta mövqeyinin azalması və 2016-cı ildən stabil olaraq davam edən de-dollarlaşma prosesi bazar risklərinin azalmasını şərtləndirmişdir.

Likvidlik riskləri:

Bank sektorunun likvidliyi komfort zonada olmaqla mümkün qısamüddətli şoklara qarşı dayanıqlıdır. Likvidliyin sektor üzrə daha homogen paylanması üzrə təşəbbüslər davam etdiriləcəkdir.

Haşiyə 2. Bank sektoru üzrə requlyativ çərçivəyə son dəyişikliklər

Bank sektorunda sağlam kreditləşmənin təmin edilməsi, yaranan risklərin mitiqasiyası, eyni zamanda real sektora kredit qoyuluşlarının artımının dəstəklənməsi, bankların qiymətli kağızlar bazarında iştirakının stimullaşdırılması, risk-əsaslı nəzarət yanaşmasının tətbiqi, habelə ekoloji şəraitin yaxşılaşdırılması məqsədilə prudensial çərçivəyə bir sıra dəyişikliklər edilmişdir. Bu dəyişikliklərin zəruri olduğunu, həmçinin, cari ilin I rübündən etibarən Mərkəzi Bank tərəfindən keçirilən bank sektorunun kreditləşmə fəaliyyətinə dair sorğunun nəticələri də dəstəkləyir[6]. Sorğu nəticələrinə əsasən bütün növ kreditləşmənin, xüsusilə istehlak kreditləşməsinin artımı, əhalinin borclanma səviyyəsinin artımı, kreditlər üzrə təminatların realizasiyasında çətinliklər və müəyyən sahələr və subyektlər üzrə kredit risklərinin mövcud olduğu bildirilmişdir.
Bu xüsusda, "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydası", "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na və "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"[7]-sına həm yumşalma, həm də sərtləşmə xarakterli dəyişikliklər edilmişdir.

<u>Yumşalma xarakterli dəyişikliklər</u>

Real sektora kredit qoyuluşlarının artımının dəstəklənməsi istiqamətində kreditlərin bank kapitalına təzyiqinin azaldılması məqsədilə edilmiş yumşalma xarakterli dəyişikliklər:

- Standart kreditlər kateqoriyası tərkibində alt "Əlavə risklərə məruz standart aktivlər" kateqoriyası yaradılmışdır. Yeni kateqoriya real sektora kredit qoyuluşlarının bank kapitalına təzyiqinin yumşalmasını, həmçinin yaranan sərbəst vəsaitin yenidən real sektorun kreditləşməsinə yönəlməsini dəstəkləyir.

- Ümidsiz aktivlərin balansdan silinməsi prosesi sadələşdirilərək müəyyən hədlərdə bu səlahiyyətin Müşahidə Şurasından İdarə Heyətinə həvalə edilməsi imkanı yaradılmışdır.

Əhalinin sosial rifahının yüksəldilməsi məqsədilə mülkiyyətində yaşayış sahəsi olmayan fiziki şəxslərin birinci mənzil alışında ilkin ödəniş tələbi azaldılmışdır (KTN tələbi yumşaldılmışdır). Əlavə olaraq, yeni dəyişikliklərə əsasən KTN əmsalına uyğun olaraq verilmiş daşınmaz əmlak krediti tam təminatlı aktiv hesab edilir.

[6] https://uploads.cbar.az/assets/b6f491363444aa4829bd773d7.pdf
[7] "Bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit risklərinin tənzimlənməsi haqqında Qaydalar"-ın adı "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"-sı kimi dəyişdirilmişdir.

Bankların qiymətli kağızlar bazarında iştirakının stimullaşdırılması istiqamətində dəyişikliklər

- BFB-nin premium bazar seqmenti ilə yanaşı standart bazar seqmentində də ticarət olunan bütün qiymətli kağızların "orta keyfiyyətli" qiymətli kağızlar kateqoriyasına aid edilərək daha yumşaq ehtiyat tələbi müəyyən edilmişdir.

Banklararası bazarın stimullaşdırılması məqsədilə banklararası kredit tələbinin maksimum miqdarına dair limit 5 f.b. yumşaldılmış, habelə banklararası kredit tələblərinə risk dərəcələri bankların kredit reytinqinə uyğun diferrensiallaşdıraraq azaldılmışdır (əvvəl reytinqdən asılı olmayaraq yerli bankların tələblərinə 100% risk dərəcəsi tətbiq edilirdi).

Requlyativ çərçivənin bank nəzarəti üzrə beynəlxalq Bazel II standartlarına uyğunlaşdırılması istiqamətində hər iki qaydaya dəyişikliklər edilərək təminatın keyfiyyətinin müəyyən edilməsi zamanı İƏİT ölkələrinə istinadlar ləğv edilmişdir. Ölkədə ekoloji şəraitin yaxşılaşdırılması və ekoloji təmiz avtomobillərdən istifadənin stimulllaşdırılması məqsədilə KTN limiti yumşaldılaraq məbləğ limiti ləğv edilmiş və yeni limit istehsal ili və mühərrikin növü üzərindən tətbiq edilmişdir. Bu xüsusda daha ekoloji təmiz olan elektrik və hibrid mühərrikli avtomobillərə daha yumşaq KTN limiti tətbiq edilmişdir.

<u>Sərtləşmə xarakterli dəyişikliklər</u>

Banklarda kredit risklərinin azaldılması istiqamətində edilmiş sərtləşmə xarakterli dəyişikliklər

- Defolt ehtimalı yüksək olan borcalanın yalnız problemli krediti deyil, eyni bankda bütün öhdəlikləri üzrə adekvat ehtiyatların təmin edilməsi məqsədilə təhlükəli və ümidsiz aktivlər üzrə yeni təsnifləşdirmə meyarları müəyyən edilmiş, qeyri-standart kateqoriyada təsnifləşdirilmiş kreditin standart kateqoriyasına geri qaytarılması şərtləri sərtləşdirilmişdir.

- Kredit bazarında hərarətlənməni səngitmək məqsədilə kredit tələbi üzrə kredit riskinin maksimum miqdarı (kredit tələbinin təminatı qismində müəyyən edilmiş təminat növlərinə uyğun olaraq azaldılmadan) üzrə bankın tutulmalardan sonra I dərəcəli kapitalın 50%-i həcmində limit müəyyən edilmişdir.

- Təkrar restrukturizasiya və yenidən maliyyələşdirmə ilə bağlı potensial risklərin mitiqasiyası məqsədilə bir sıra sərtləşmələr edilmişdir. Belə ki, borcalanın vaxtı keçmiş kreditlərinin ödənişinə yönəldilmiş yeni borc öhdəliyinin təsnifat kateqoriyası üzrə limit müəyyən edilmişdir. Dəyişikliyə əsasən, yeni kreditin kateqoriyası vəsait yönəldilmiş vaxtı keçmiş kreditlərin ən aşağı təsnifat kateqoriyasından yuxarı ola bilməz. Eyni zamanda, təkrar restrukturizasiyalar üzrə əlavə ehtiyat tələbləri müəyyən edilmiş, restrukturizasiya olunmuş annuitet qrafikli aktivin təsnifat kateqoriyasının yaxşılaşdırılması üzrə müddət tələbi sərtləşdirilmişdir.

- Balansdan silinmiş və sonradan balansa geri qaytarılmış aktivlərin təsnifat kateqoriyasının yaxşılaşdırılmasının da restrukturizasiya olunmuş kreditlər üzrə yanaşmaya uyğun olaraq aparılması müəyyən olunmuşdur.

Xarici valyutada borclanma ilə bağlı risklərin qarşısının alınması məqsədilə edilmiş sərtləşmə xarakterli dəyişiklik

- Hedcləşdirilməmiş borcalanlar (xarici valyutada gəliri olmayan) üçün xarici valyutada olan biznes kreditlərinin risk dərəcəsi 120%-dən 200%-ə qaldırılmışdır.

İstehlak kreditləşməsinin sürətli artımı fonunda sağlam kreditləşmənin təmini, əhalinin izafi borcalanmasının azaldılması və sektorun potensial təhdidlərdən qorunması məqsədilə edilmiş sərtləşmə xarakterli dəyişikliklər

- BGN və faiz dərəcəsi yüksək kreditlər üçün banklara daha çox kapital tələbi müəyyən edilmişdir (risk dərəcəsi 50 faiz bəndi artırılmışdır).

- BGN əmsalının yuxarı həddinə müəyyən istisnalarla limit müəyyən edilmiş və istehlak kreditlərinin, o cümlədən restrukturizasiya edilmiş istehlak kreditlərinin müddət tələbi qısaldılmışdır.

- İstehlak kreditlərinin təkrar restrukturizasiyası ilə bağlı risklərin azaldılması məqsədilə BGN əmsalına əsaslanan ehtiyatlanma tələbləri sərtləşdirilərək tələbin əhatə dairəsinə restrukturizasiya edilmiş, limiti artırılmış, habelə həmin bankdan son 6 ay ərzində alınmış bütün istehlak kreditləri əlavə edilmişdir.

- İstifadə edilməmiş kredit xətlərinin balansa keçmə ehtimalı yüksək olduğu üçün post-faktum pozuntulara yol verməmək məqsədilə kredit xətlərini hesablamada tam həcmdə nəzərə alınması üzrə dəyişiklik edilmişdir.

Risk-əsaslı nəzarət yanaşmasının tətbiqi istiqamətində

- Balansdankənar öhdəliklər üzrə risk əsaslı yanaşma tətbiq edilmişdir.

- Risk əsaslı nəzarətin gücləndirilməsi məqsədilə Bazel Komitəsinin prinsiplərinə uyğun olaraq, Mərkəzi Banka hesabatlığa dair yeni tələblər gətirilmişdir.

Bank sistemi üzrə kredit riski

Cari ilin ilk yarısında kredit risklərində dəyişiklik baş verməmişdir. İl ərzində bank sektoru üzrə qeyri-işlək kreditlər (QİK) əmsalı dəyişməyərək 4.5% təşkil etmişdir.

Qrafik 28. Bank sektoru üzrə QİK portfelinin dinamikası



Mənbə: AMB

Milli valyutada verilmiş kreditlər üzrə QİK əmsalı 4.2%, xarici valyuta üzrə isə 5.6% təşkil edir. Bütövlükdə, bençmark ölkələr ilə müqayisədə Azərbaycanda kredit riski göstəricisi kimi qeyri-işlək kreditlər əmsalının qənaətbəxş səviyyədə olduğu müşahidə edilir.

Qrafik 29. QİK əmsalının ölkələr üzrə müqayisəsi



Mənbə: BVF, müvafiq nəzarət orqanları

Qrafik 30. QİK portfelinin gecikmə müddətləri üzrə bölgüsü



Mənbə: AMB

QİK portfelinin gecikmə günləri üzrə strukturunun dinamikası da, kredit risklərinin azaldığını göstərir. Belə ki, 2017-ci ildən etibarən 1 ildən artıq gecikmiş qeyri-işlək kreditlərin portfeldə payı 11.3 f.b. azalaraq 14.2%-dən 2.9%-ə enmişdir.

Biznes portfeli üzrə kredit risklərində əhəmiyyətli dəyişiklik müşahidə olunmamışdır. Biznes portfeli üzrə QİK əmsalı 5.3% olmuşdur. Biznes portfeli üzrə qeyri-işlək kreditlərin konsentrasiyası tikinti sahəsində müşahidə edilir, belə ki, bu sahə üzrə QİK portfeli cəmi biznes QİK portfelinin 28%-ni təşkil edir.

İstehlak portfeli üzrə QİK əmsalında ciddi dəyişiklik baş verməmişdir. Cari ilin ilk 6 ayında istehlak kreditləri üzrə QİK əmsalı 0.2 f.b. artaraq 4.3% olmuşdur. İstehlak portfelinin 74%-ni sabit gəlirləri olan dövlət və özəl sektorda çalışanlara verilmişdir. Ümumilikdə, son dövrlərdə istehlak portfelində dövlət sektorunda çalışanların payı stabil olaraq artması müşahidə olunur.

Qrafik 31. İqtisadiyyatın sahələri üzrə QİK portfelinin strukturu



Mənbə: AMB

Qrafik 32. İstehlak portfeli üzrə borcalanların strukturu, faizlə



Mənbə: AMB

2022-ci ilin ilk yarımilində orta borc yükündə artım müşahidə edilmişdir[8]. Lakin, requlyativ çərçivəyə edilmiş son dəyişikliklərə əsasən BGN əmsalı üzrə yüksək hədd 70% səviyyəsində müəyyən edilmişdir. Bu xüsusda, gələcəkdə sosial vəziyyəti həssas olan əhalinin borc yükünün azalması gözlənilir.

Qrafik 33. Orta borc yükünün dinamikası, manatla



Mənbə: AMB

[8] *Hesablama qalıq borcu 500 – 150 000 manat intervalında olan borclanlar üzrə aparılmışdır (FİN üzrə)*

İpoteka kreditləri üzrə qeyri-işlək kreditlərin həcmində azalma müşahidə edilmişdir. 2022-ci ilin ilk yarımilində ipoteka portfeli üzrə QİK-in həcmi 19.4% (12.9 mln. manat) azalaraq 53.4 mln. manat təşkil etmişdir. Nəticədə ilin sonuna QİK əmsalı 0.7 f.b. azalaraq 2% olmuşdur. İpoteka kreditləşməsinin 61%-ni (1.6 mlrd. manat) təşkil edən AİKZF-in vəsaitləri hesabına verilmiş kreditlər üzrə QİK əmsalı cəmi 0.5% təşkil edir.

Qrafik 34. Restrukturizasiya edilmiş portfelin dinamikası



Mənbə: AMB

Restrukturizasiya portfelinin dinamikasında azalma müşahidə olunur. 2022-ci ilin ilk 6 ayı ərzində restrukturizasiya edilmiş portfel 9.1% (175 mln. manat) manat azalaraq 1.7 mlrd. manata çatmışdır. Restrukturizasiya edilmiş kreditlərin cəmi kredit portfelində payı 2.1 f.b. azalaraq 9.5%-ə çatmışdır. Restrukturizasiya olunmuş kreditlərin cəmi portfeldə payı son beş ilin ən aşağı səviyyəsindədir.

Qrafik 35. Restrukturizasiya portfelinin strukturu, mln. manat



Mənbə: AMB

Restrukturizasiya edilmiş portfelin sahələr üzrə təhlili biznes kreditlərinin payının daha çox olduğunu göstərir. Belə ki, biznes portfeli üzrə restrukturizasiya olunmuş kreditlər 1.3 mlrd. manat təşkil edir ki, bu da cəmi restrukturizasiya portfelinin 3/4-ü həcmindədir. İstehlak portfeli üzrə restrukturizasiya olunmuş kreditlərin həcmi 356 mln. manat, ipoteka portfeli üzrə isə 64 mln. manat təşkil edir. Son altı ay ərzində restrukturizasiya portfelində azalma portfelin hər üç seqmenti üzrə müşahidə edilmişdir. Eyni zamanda, iki dəfə və daha çox restrukturizasiya olunmuş kreditlərin cəmi restrukturizasiya portfelində payı da 36%-dən 32%-ə enmişdir. Restrukturizasiya portfeli üzrə mümkün risklərin tənzimlənməsi diqqətdə saxlanılır və bu istiqamətdə requlyativ çərçivəyə müvafiq dəyişikliklər edilmişdir (Haşiyə 2).

Bank sistemi üzrə bazar riski

Bank sektorunun valyuta mövqeyi prudensial tələblər çərçivəsindədir. 2022-ci ilin iyun ayında bank sisteminin qısa açıq valyuta mövqeyi 255 mln. ABŞ dolları, məzənnə riskləri üzrə prudensial normativ təşkil edən açıq valyuta mövqeyinin məcmu kapitala nisbəti göstəricisi isə mənfi 9.1% təşkil etmişdir.

2022-ci ilin iyul ayında ABB-in qısa açıq valyuta mövqeyi tənzimlənmiş, nəticədə, 2022-ci ilin iyul ayında bank sisteminin açıq valyuta mövqeyinin məcmu kapitala nisbəti göstəricisi yaxşılaşaraq müsbət 2.7% təşkil etmişdir. Sektorun valyuta mövqeyinin normativ tələblər çərçivəsində təhlükəsiz zonada olması maliyyə sabitliyinin təmin olunmasına imkan verir.

2015-ci ildən etibarən müşahidə edilən de-dollarlaşma trendi davam etməkdədir. Cari ilin II rübünün sonuna bank sisteminin öhdəliklərinin 46%-i, aktivlərinin isə 40%-i xarici valyutadadır. Müqayisə üçün, 2015-ci ildə bu göstəricilər müvafiq olaraq 73% və 58% təşkil etmişdir.

Qrafik 36. Depozit portfelinin dollarlaşması



Mənbə: AMB

Öhdəliklərin de-dollarlaşması trendinin aparıcı drayveri bank sisteminə əsas inam göstəricisi olan fiziki şəxslərin depozitləridir. İlin ilk yarısında bütövlükdə fiziki şəxslərin cəmi depozitlərinin dollarlaşması 0.9 f.b. azalaraq 40.8%, müddətli depozitlərinin dollarlaşması isə 2.7 f.b. azalaraq 41.8% olmuşdur. Milli valyutada əmanətlərin artımının əsas səbəbləri manata inam və milli valyutada depozit faizlərinin yüksək olmasıdır.

Qrafik 37. Fiziki şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla



Mənbə: AMB

Hüquqi şəxslərin depozitlərinin dollarlaşma səviyyəsi fiziki şəxslərin depozitləri ilə müqayisədə daha yüksəkdir. Son 6 ay ərzində hüquqi şəxslərin depozitlərinin dollarlaşması 1.9 f.b. artaraq 52.5% olmuşdur. Hüquqi şəxslərin xarici valyutada depozitləri əsasən tələbli depozitlərdə konsentrasiya olunmuşdur.

Qrafik 38. Hüquqi şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla



Mənbə: AMB

Kredit portfelinin bütün seqmentləri üzrə dollarlaşmanın səviyyəsi tarixi minimumdadır. Dövr ərzində manatın məzənnəsinin sabitliyi və manatla kreditləşmənin genişlənməsi nəticəsində kredit portfelində milli valyutada olan kreditlərin payının artması trendi davam etmişdir. Belə ki, ilin ilk yarısında bütövlükdə kredit portfelinin dollarlaşması 2.9 f.b. azalaraq 23.3% təşkil etmişdir. Ötən 6 ay ərzində biznes kreditlərinin dollarlaşması 3.5 f.b. azalaraq 37.9%, istehlak kreditlərinin dollarlaşması 1.5 f.b. azalaraq 5.5%, ipoteka kreditlərinin dollarlaşma səviyyəsi isə 0.1 f.b. azalaraq 0.4% təşkil etmişdir. Xarici valyutada gəliri olmayan borcalanlara xarici valyutada istehlak kreditlərinin verilməsinin məhdudlaşdırılması istehlak portfelinin dollarlaşmasının tarixi minimuma enməsinə imkan vermişdir. Habelə, Mərkəzi Bankın normativ xarakterli aktlarına əsasən daşınmaz əmlak kreditinin (ipoteka krediti) yalnız milli valyutada verilməsi tələbi ipoteka kreditləri üzrə portfelin demək olar ki, milli valyutada olmasını şərtləndirmişdir.

Qrafik 39. Kredit portfelinin xarici valyutada payı



Mənbə: AMB

Qrafik 40. Kredit portfelinin valyuta strukturu və dinamikası, mlrd.manatla



Mənbə: AMB

Bankların faiz dərəcəsinə qarşı həssaslığı onların dayanıqlığına təhdid yaratmır. Bazar risklərindən olan faiz dərəcəsi riski durasiya metodu ilə təhlil edilmişdir[9]. Sektorda aktiv və öhdəliklərin əksəriyyəti balans dəyəri ilə əks etdirildiyinə görə hesablamalar balans dəyəri üzərindən aparılmış və AMB-nin uçot faiz dərəcəsi ilə diskontlaşdırılmışdır. Aktiv və öhdəliklər arasında durasiya uyğunsuzluğunun əsas mənbəyi verilmiş kreditlərin və cəlb olunmuş depozitlərin orta çəkili durasiyaları arasında fərqin 4 dəfəyə yaxın olmasıdır.

Müsbət durasiya fərqi nəticəsində faiz dərəcələrinin artımı kapital adekvatlığı əmsalına azaldıcı təsir edir. Aparılmış simulyasiyalara əsasən, faiz dərəcəsinin 1% artması kapital adekvatlığı əmsalının cəmi 0.9 f.b. azalması ilə nəticələnir ki, bu da bank sisteminin maliyyə dayanıqlığına təhdid yaratmır.

[9] Durasiya təhlili Makaulay durasiya konsepsiyasına əsaslanaraq, aktiv və öhdəliklərin orta çəkili müddətinin ölçülməsində istifadə olunur. Xatırladaq ki, durasiya qəpi təhlili bankların bazar faiz dərəcəsinə olan həssaslığını $\partial(aktiv) - \frac{\partial(öhdəlik)\times öhdəlik}{aktiv}$ –düsturu vasitəsi ilə ölçür. Təhlil zamanı aktiv və öhdəliklər mərkəzi bankın faiz uçot dərəcəsi ilə diskontlaşdırılmışdır

Bank sistemi üzrə likvidlik riski

Sektorun likvidliyi komfort zonada olmaqla potensial xarici şoklara qarşı adekvat buferə malikdir. Bank sisteminin ani likvidlik əmsalı 61% təşkil edir ki, bu da minimum normativi (30%) iki dəfə üstələyir. Aktivlərin 37.4%-ni likvid vəsaitlər təşkil edir ki, bu da bençmark ölkələr ilə müqayisədə yüksək göstəricidir.

Qrafik 41. Ölkələr üzrə likvid aktivlərin cəmi aktivlərdə payı göstəricisi



Mənbə: BVF və müvafiq nəzarət orqanları

Hüquqi və fiziki şəxslərin tələbli depozitlərinin dinamik artımı hesabına likvid aktivlərin həcmi və cəmi aktivlərdə payının artımı davam edir. Belə ki, 2022-ci ilin birinci yarısı ərzində likvid aktivlər 13% və ya 1.8 mlrd. manat artaraq 15.7 mlrd. manata çatıb. Likvid aktivlərin 36.2%-i nostro hesablar, 27.1%-i Mərkəzi Bankda müxbir hesablar, 26.2%-i dövlət qiymətli kağızları, 10.5%-i isə nağd vəsaitlərdə cəmlənmişdir. Pandemiyadan öncəki dövrlə müqayisədə likvid aktivlərin bütün komponentləri üzrə artım müşahidə edilmişdir. Bank sistemi üzrə likvid aktivlər fiziki şəxslərin tələbli depozitlərini 3 dəfədən çox üstələyir və hüquqi şəxslərin tələbli depozitlərinin əhəmiyyətli hissəsini əhatə edir.

Qrafik 42. Likvid aktivlərin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

Qrafik 43. Likvid aktiv komponentlərinin likvid aktivlərdə payının dinamikası



Mənbə: AMB

Likvid vəsaitlərin strukturunda xarici valyutada olan likvid aktivlərin payı artmışdır. 2022-ci ilin birinci yarımilində milli valyutada olan likvid vəsaitlər 0.9% (62 mln. manat) azalaraq 6.7 mlrd. manata enmişdir. Sektorun xarici valyutada likvid aktivləri isə ötən ilə nisbətdə 26.3% (1.9 mlrd. manat) artaraq 9 mlrd. manata çatmışdır.

Qrafik 44. Likvid aktivlərin valyuta strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

Müddəti 1 ilədək olan aktivlərin ümumi aktivlərdə payı 59%, öhdəliklər üçün analoji göstərici isə 73% təşkil etmişdir. Müddət strukturu üzrə öhdəliklərin 69%-nin 90 gündən aşağı olması uzunmüddətli maliyyələşdirməyə məhdudlaşdırıcı təsir edir.

Qrafik 45. Aktiv və öhdəliklərin müddət strukturu



Mənbə: AMB

Kreditin depozitə nisbəti üzrə dinamika bankların kreditləşmə fəaliyyətinin təmini üçün resurs bazasına malik olduğunu göstərir. 2022-ci ilin birinci yarımilində kredit portfelinin depozit portfelinə nisbəti ötən ilə nisbətdə 1 f.b. azalaraq ötən illərin ən aşağı göstəricisi olmuşdur.

Qrafik 46. Kredit portfelinin depozit portfelinə nisbəti göstəricisinin dinamikası



Mənbə: AMB

Bank sisteminin mənfəətliliyi

Sektorun mənfəətliliyi post-pandemiya dövrünün ən yüksək həddindədir. 2022-ci ilin birinci yarımilində bank sisteminin xalis mənfəəti 401 mln. manat təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9.6% və ya 35 mln. manat çoxdur. Cari ilin ilk yarısında 24 bank mənfəətlə işləmiş, 2 bank isə yarımili zərərlə bitirmişdir. Zərərlə işləyən bankların məcmu zərəri 1 mln. manat azalaraq cəmi 5 mln. manat olmuş və bu bankların aktivlərinə görə sektorda payı cəmi 0.87% təşkil etmişdir. Mənfəətlə işləyən 24 bankın xalis mənfəəti isə ötən ilin eyni dövrü ilə müqayisədə 9.1% və ya 34 mln. manat artaraq 406 mln. manat olmuşdur.

Qrafik 47. Bank sisteminin mənfəətliyi, mln. manatla



Mənbə: AMB

Fərdi banklar üzrə mənfəətlilik göstəricilərində də müsbət dinamika müşahidə edilir. Belə ki, son 6 ildə zərərlə işləyən bankların sayının azaldığı müşahidə edilir. Lakin bank sektorunun mənfəətliliyinin və mənfəətlə işləyən bankların sayının artmasına baxmayaraq sektorun aktivlərinin artım tempinin mənfəətliliyin artım tempindən yüksək olması ROA göstəricisinin azalmasını şərtləndirmişdir.

Qrafik 48. Mənfəət və zərərlə işləyən bankların sayı və dinamikası, mln. manatla



Mənbə: AMB

Banklarda gəlirliliyin formalaşmasında yüksək leverec əsas rol oynamışdır. Birinci yarımil ərzində bank sektorunun ROE göstəricisi 0.2 f.b. artaraq 15.3% olmuşdur. Gəlirliliyin komponentlərinin təhlili üzrə beynəlxalq təcrübədə geniş istifadə olunan DuPont[10] təhlili son yarımildə ROE-nin artımını şərtləndirən əsas amil kimi bankların daha yüksək levereclə fəaliyyət göstərməsini müəyyən edir. Dövr ərzində aktivlərin sürətli artımı leverec əmsalını artırmışdır. Cari dövrdə aktivlərin artmasına baxmayaraq ümumi gəlirlərin də müvafiq artımı nəticəsində aktiv dövriyyəsində cəmi 0.1 f.b. azalma baş vermişdir. Sektorun xalis mənfəətində müsbət dinamika müşahidə edilsə də, cəmi gəlirlərə münasibətdə daha aşağı artım tempi mənfəət marjasının azalmasına səbəb olmuşdur. Belə ki, 2022-ci ilin ilk yarımilində xalis mənfəət marjası ötən ilin eyni dövrü ilə müqayisədə 3.7 f.b. azalmışdır.

Qrafik 49. Du-pont - ROE-nin dekompozisiyası təhlili



Mənbə: AMB

Xalis mənfəətin artımının drayveri kimi xalis faiz gəlirləri çıxış etmişdir. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə xalis faiz gəlirlərinin 207 mln. manat və yaxud 28.3%, qeyri-faiz gəlirlərinin isə 115 mln. manat və ya 27% artması bank sektorunun nominal mənfəətliyinin artmasını təmin etmişdir. Bu artıma baxmayaraq məqsədli ehtiyatlar üzrə xərclərin 51.7 mln. manat və yaxud 69.4%, eyni zamanda qeyri-faiz xərclərinin 211 mln. manat və ya 33% artması mənfəət marjasının azalmasını şərtləndirmişdir.

Məqsədli ehtiyatlar üzrə artım əsasən istehlak kreditləri üzrə baş vermişdir. Belə ki, mövcud makroprudensial çərçivəyə əsasən istehlak kreditləri üzrə BGN əmsalı 45%-dən yüksək olduqda bu kreditlər qeyri-standart kreditlər kimi təsnifləşdirilməli və onlara 25% məqsədli ehtiyat yaradılmalıdır.

[10] DuPont təhlili, kapitalın gəlirliliyi əmsalını (ROE) müxtəlif komponentlərə bölərək gəlirliliyin formalaşma mənbələrini təhlil edir. Geniş yayılmış beynəlxalq təcrübədə ROE mənfəət marjası (xalis mənfəət / ümumi gəlirlər), aktivlərin dövriyyəsi (ümumi gəlirlər / aktivlər) və leverec əmsalının (aktivlər/balans kapitalı) hasilinə bərabərdir.

Qrafik 50. Sektor üzrə mənfəətin dekompozisiyası və dinamikası, mln. manatla



Mənbə: AMB

Sektorun səmərəlilik göstəriciləri artan qeyri-faiz xərcləri fonunda azalmaqdadır. 2019-cu ildən bəri bank sektorunun əsas səmərəlilik göstəricisi olan qeyri-faiz xərclərinin xalis məcmu gəlirə nisbətində, həmçinin, qeyri faiz xərclərinin faiz gəlirlərinə nisbətində neqativ dinamika müşahidə edilir. Belə ki, 2022-ci ilin birinci yarımilində qeyri-faiz xərcləri xalis məcmu gəlirin 51%-ni təşkil etmişdir ki bu da keçən ilin eyni dövrü ilə müqayisədə 3 f.b. yuxarı göstəricidir. Faiz və qeyri faiz gəlirlərinin dinamikası müsbət olsa da, qeyri-faiz xərclərinin artım tempi daha yüksəkdir. Nəticə etibarilə qeyri-faiz xərclərinin faiz

Qrafik 51. Bank sektorunun səmərəlilik göstəriciləri



Mənbə: AMB

gəlirlərinə nisbəti ötən illə müqayisədə 4 f.b., qeyri-faiz gəlirlərinə nisbəti isə 6 f.b. artmışdır. Artımın drayverləri qeyri-faiz xərclərinin strukturunda əsas pay sahibi olan əmək haqqı və komissiya xərcləridir. Belə ki, qeyri-faiz xərclərinin 41%-ni təşkil edən əmək haqqı xərcləri cari ilin birinci yarımilində ötən ilin eyni dövrünə nisbətdə 27% (74 mln. manat), qeyri-faiz xərclərinin 24%-ni təşkil edən komissiya xərcləri isə 64% (81 mln. manat) artmışdır.

Qrafik 52. Qeyri-faiz xərclərinin strukturu



Mənbə: AMB

Qrafik 53. Qeyri-faiz xərclərinin artım tempi



Mənbə: AMB

Bankların faiz gəlirləri əsasən istehlak və biznes kreditləri hesabına formalaşmışdır. Birinci yarımil ərzində sektorun faiz gəlirləri 25% (249 mln. manat), faiz xərcləri isə 13.3% (35 mln. manat) artaraq müvafiq olaraq 1.3 mlrd. və 298 mln. manat təşkil etmişdir. Faiz gəlirlərinin əsas hissəsi ötən ildəki kimi istehlak kreditləri (470 mln. manat) və biznes kreditləri üzrə (469 mln. manat) formalaşmışdır. 2022-ci ildə istehlak və biznes kreditləri portfellərinin hər biri üzrə faiz gəlirləri cəmi kredit portfeli üzrə faiz gəlirlərinin 45%-ni, cəmi faiz gəlirlərinin isə 37%-ni təşkil edir.

Qrafik 54. Faiz gəlirlərinin strukturu



Mənbə: AMB

Bankların faiz xərclərinin əsas hissəsini fiziki şəxslərin depozitləri üzrə xərclər təşkil edir. Bankların əsas dayanıqlı maliyyələşmə mənbəyi kimi çıxış edən fiziki şəxslərin depozitləri faiz xərclərinin də əhəmiyyətli hissəsini (55% və ya 165 mln. manat) formalaşdırır. Faiz xərclərinin digər əsas istiqamətləri hüquqi şəxslərin depozitləri və maliyyə institutlarının kreditləridir.

Qrafik 55. Faiz xərclərinin strukturu



Mənbə: AMB

Bank sisteminin kapital mövqeyi

Sektorun kapital mövqeyi prudensial tələbləri üstələməklə potensial itkiləri absorbsiya etmək imkanındadır. 2022-ci ilin ilk yarımilinin sonuna olan məlumatlara əsasən sektorun I dərəcəli kapitalı 4.2 mlrd. manat, məcmu kapitalı isə 4.8 mlrd. manat təşkil edir. Sektor üzrə KAƏ (kapital adekvatlığı əmsalı) 18.2% təşkil etmişdir ki, bu da tələb olunan minimum prudensial tələbləri 2 dəfəyə yaxın üstələyir. 2021-ci ilin sonu ilə müqayisədə sektor üzrə məcmu kapital 5.7% və ya 259 mln. manat artmışdır.

Ötən ilin sonu ilə müqayisədə məcmu kapitalın həcminin artımına baxmayaraq, kapital adekvatlığı əmsalı göstəricisi 0.9 f.b. azalaraq 18.2% olmuşdur. Bunun əsas səbəbi risk üzrə ölçülmüş aktivlərin artım tempinin məcmu kapitalın artım tempindən daha yüksək olmasıdır.

Qrafik 56. Kapital adekvatlığının dinamikası, mln. manatla



Mənbə: AMB

Kapitalın strukturunda I dərəcəli kapitalın payı artaraq son dövrdə maksimal paya çatmışdır. Ötən ilin sonu ilə müqayisədə cari ilin ilk yarımilində yüksək keyfiyyətli hesab olunan I dərəcəli kapitalın həcmi bankların daxili mənfəət generasiyası hesabına 413 mln. manat və ya 11% artaraq 4.2 mlrd. manat təşkil etmişdir. 2021-ci ildə I dərəcəli kapitalın məcmu kapitalda payı cüzi azalsa da, ümumilikdə son 5 ildə həm daxili mənfəət generasiyası, həm kapital inyeksiyaları nəticəsində I dərəcəli kapitalın payının artım dinamikası davam edərək cari dövrdə 88%-ə çatmışdır.

Qrafik 57. Kapitalın strukturunun dinamikası, mln. manatla



Mənbə: AMB

2022-ci ilin ilk yarımili ərzində RÜÖA artmışdır. Məcmu kapitalın 5.7% (259 mln. manat) artması fonunda risk üzrə ölçülmüş aktivlərin həcmi 10.8% (2.6 mlrd. manat) artmışdır. Nəticədə risk üzrə ölçülmüş aktivlərin cəmi aktivlərə nisbəti göstəricisi il ərzində 1 f.b. artaraq 63%-ə yüksəlmişdir. Bunun əsas səbəbi post-pandemiya dövründən etibarən banklar tərəfindən davamlı olaraq kredit portfelinin həcminin artırılması, eyni zamanda, 2021-ci ildən etibarən prudensial tələblərin sərtləşdirilərək daha riskli istehlak kreditləri üzrə RÜÖA tələblərinin artırılması və RÜÖA hesablanmasına əməliyyat və bazar risklərinin də daxil edilməsi olmuşdur. Cari ilin ilk yarısına olan məlumata əsasən RÜÖA 26.3 mlrd. manat olmuşdur ki, bu məbləğin 24.5 mlrd. manatı kredit, 0.6 mlrd. manatı bazar, 1.2 mlrd. manatı isə əməliyyat risklərindən irəli gəlir.

Qrafik 58. Risk üzrə ölçülmüş aktivlərin risk kateqoriyalarına görə bölgüsü, mlrd. manatla



Mənbə: AMB

Qrafik 59. Aktivlər və RÜÖA-nın dinamikası



Mənbə: AMB

Bazel III standartlarına əsasən kontr-tsiklik kapital buferinin nəzərə alınması. "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na əsasən iqtisadi tsikl və kredit portfelinin dinamikasına uyğun olaraq AMB tərəfindən I dərəcəli kapital və məcmu kapital adekvatlığı əmsalının üzərinə 0 – 2.5% arasında kontr-tsiklik kapital buferi tətbiq edilə bilər. Kontr-tsiklik kapital buferi makroprudensial alət olaraq bank sektorunda izafi kreditləşmənin nəticəsi olan sistem risklərinin qarşısının alınması və tsiklik proseslərə həssaslığın azaldılmasını nəzərdə tutur. Kontr-tsiklik kapital buferinin hesablanması üçün əsas göstərici kimi kredit qəpi[11] qəbul edilir. Kredit qəpi 2-10% aralığında dəyişdikdə kontr-tsiklik kapital buferi müvafiq olaraq 0-2.5% aralığında müəyyən edilir. Hazırda, kredit qəpi -0.5% təşkil edir.

Qrafik 60. Kredit portfelinin ÜDM-ə nisbəti, HP Trendi ilə



Mənbə: AMB

[11] Kredit qəpi – müvafiq dövrdə banklar tərəfindən müştərilərə verilmiş kredit portfelinin ÜDM-ə nisbətinin bu nisbətin uzunmüddətli trendinin həmin dövrə olan göstəricisinin fərqidir.

Cədvəl 2. Bank sistemi üzrə seçilmiş əsas göstəricilər, mln. Manatla*

	2022 II rüb	2022 I rüb	2021 IV rüb	2021 III rüb	2021 II rüb	2021 I rüb
Balans göstəriciləri						
Cəmi aktivlər	41,920	39,673	38,462	34,527	33,070	32,521
Likvid aktivlər	15,669	14,925	13,866	11,426	10,692	10,812
Kredit portfeli	18,320	17,528	16,659	15,539	14,857	14,352
Biznes kreditləri	10,482	10,182	9,740	9,002	8,729	8,565
İstehlak kreditləri	5,190	4,831	4,518	4,239	3,940	3,680
İpoteka kreditləri	2,649	2,515	2,401	2,297	2,188	2,107
Cəmi öhdəliklər	36,774	34,732	33,493	29,655	28,220	27,672
Cari öhdəliklər	24,346	22,831	20,594	18,877	18,114	16,932
Fiziki şəxslərin depozitləri	10,379	10,201	9,032	8,664	8,271	8,013
fiziki şəxslərin müddətli depozitləri	5,736	5,502	5,339	5,238	5,007	4,806
fiziki şəxslərin tələbli depozitləri	4,642	4,699	3,693	3,426	3,263	3,207
Hüquqi şəxslərin depozitləri	19,603	18,058	17,906	14,986	13,854	13,038
hüquqi şəxslərin müddətli depozitləri	2,251	1,934	2,053	2,092	2,073	2,119
hüquqi şəxslərin tələbli depozitləri	17,353	16,124	15,853	12,895	11,781	10,918
Balans kapitalı	5,146	4,942	4,969	4,871	4,850	4,849
Kapital mövqeyi						
I dərəcəli kapital	4,229	4,265	3,815	3,842	3,969	4,187
Məcmu kapital	4,790	4,528	4,531	4,422	4,441	4,431
Risk dərəcəsi üzrə ölçülmüş aktivlər	26,346	25,003	23,781	22,833	19,087	18,806
I dərəcəli kapital adekvatlığı	16.1%	17.1%	16.0%	16.8%	20.8%	22.3%
Məcmu kapital adekvatlığı	18.2%	18.1%	19.1%	19.4%	23.3%	23.6%

	2022 II rüb	2022 I rüb	2021 IV rüb	2021 III rüb	2021 II rüb	2021 I rüb
Gəlirlilik						
Xalis mənfəət	401	174	609	506	366	149
Aktivlərin gəlirliyi (ROA)	2.0%	1.8%	1.8%	2.0%	2.2%	1.8%
Likvidlik riski profili						
Likvid aktivlər	15,669	14,925	13,866	11,426	10,692	10,812
Likvid aktivlərin aktivlərdə payı	37.4%	37.6%	36.1%	33.1%	32.3%	33.2%
Ani likvidlik əmsalı	61.4%	64.0%	61.6%	58.1%	57.9%	63.4%
Kredit riski profili						
Qeyri-işlək kreditlər	827	812	749	859	902	918
Biznes kreditləri	552	558	499	556	593	620
İstehlak kreditləri	222	192	183	221	212	189
İpoteka kreditləri	53	62	66	81	97	109
Qeyri-işlək kreditlər əmsalı	4.5%	4.6%	4.5%	5.5%	6.1%	6.4%
Biznes kreditləri	5.3%	5.5%	5.1%	6.2%	6.8%	7.2%
İstehlak kreditləri	4.3%	4.0%	4.1%	5.2%	5.4%	5.1%
İpoteka kreditləri	2.0%	2.5%	2.8%	3.5%	4.4%	5.2%
Bazar riski profili						
Aktivlərin dollarlaşması	40.0%	39.9%	39.4%	38.9%	38.5%	40.2%
Öhdəliklərin dollarlaşması	45.7%	46.5%	45.3%	46.1%	46.5%	48.8%

** Prudensial hesabatlıq metodologiyası əsasında hesablanmışdır.*

Bank olmayan kredit təşkilatları

Bank olmayan kredit təşkilatlarının (BOKT) maliyyə vasitəçiliyində rolu kiçik olaraq qalmaqdadır. Bütövlükdə bank olmayan kredit təşkilatlarının maliyyə sistemində aktivlərinə görə bazar payı 1.0% təşkil edir[12]. Fəaliyyət göstərən 97 bank olmayan kredit təşkilatından 15-i xarici kapitallıdır ki, onların da 11-də xarici kapitalın payı 50%-100% arası təşkil edir. Cari ilin ilk yarımilliyinin sonuna BOKT-lərin sayı 55, Kİ-nın sayı isə 41 olmuşdur. 6 ay ərzində BOKT işçilərinin sayı 42 nəfər artaraq 2 592 nəfər, filial sayı isə 11 ədəd artaraq 280-ə çatmışdır. Hesabat dövrü ərzində 2 BOKT-nin lisenziyası ləğv edilmiş, yeni BOKT lisenziyası verilməmişdir.

Ölkədə fəaliyyət göstərən BOKT-lərin cəmi aktivləri son 6 ay ərzində 13.3% (52 mln. manat) artaraq 440 mln. manat təşkil etmişdir. Artımın əsas drayveri xalis kredit portfeli olmuşdur. İl ərzində xalis kredit portfeli 12.4% (36 mln. manat) artmışdır ki, bu da əsasən istehlak kreditləri hesabına formalaşmışdır. Dövr ərzində BOKT-lərin investisiya portfelinin (digər törəmə təsərrüfat cəmiyyətlərində iştirak payı) 2 dəfədən çox artaraq 19 milyon manata çatdığı müşahidə edilir.

Qrafik 61. Bank olmayan kredit təşkilatlarının aktivlərinin dinamikası, mln. manatla



Mənbə: AMB

[12] BOKT-lərin təhlili "Aqrarkredit" QSC nəzərə alınmadan aparılmışdır.

Cari ildə də istehlak kreditləri BOKT-lərin portfelində əsas yeri tutmaqda davam edir. 2022-ci ilin ilk 6 ayının sonuna BOKT-lərin kredit portfelinin 62%-i (227 mln. manat) istehlak kreditləri, 38%-i (140 mln. manat) isə biznes kreditləri təşkil edir. Biznes portfelinin 35.6%-i (50 mln. manat) kənd təsərrüfatı, 26.1%-i (36 mln. manat) qeyri-istehsal və xidmət, 19.0%-i (27 mln. manat) isə ticarət sahələrinə verilmiş kreditlər təşkil edir.

Qrafik 62. BOKT-lərin kredit portfelinin strukturu, mln. manatla



Mənbə: AMB

BOKT sistemində təmərküzləşmə səviyyəsi aşağı olsa da təmərküzləşmə əlamətləri müşahidə olunur. Təmərküzləşmənin qiymətləndirilməsi üçün beynəlxalq təcrübədə geniş istifadə olunan Herfindahl-Hirschman İndeksi - HHİ[13] BOKT sistemində aşağı təmərküzləşmənin olmasını göstərir. Bunun səbəbi sektorda xırda və orta həcmli BOKT-lərin sayının çox olmasıdır. Belə ki, aktivlərin və kredit portfelinin sektor üzrə payına görə HHİ müvafiq olaraq 514 və 568 təşkil edir. Lakin qeyd edək ki, sektorda fəaliyyət göstərən BOKT-lərdən aktivlərinin həcmi 10 mln. manatdan yüksək olan cəmi 13 kredit təşkilatı mövcuddur ki, bu təşkilatların sektorda payı 73.6%-dir (323.8 mln. manat). Həmçinin aktivlərinin məbləği 2 mln. manatdan aşağı olan 25 BOKT mövcuddur ki, bu təşkilatlar sektorun yalnız 5.3%-i təşkil edir.

[13] HHİ indeksi beynəlxalq təcrübədə bazarlarda rəqabətliliyin səviyyəsi və təmərküzləşməni qiymətləndirmək üçün istifadə olunur. Amerika Birləşmiş Ştatların Ədliyyə departamentinin təcrübəsinə əsasən bu indeks əsasında bazarlar 3 hissəyə ayrılır: aşağı səviyyədə təmərküzləşmiş bazarlar (HHİ<1500), orta səviyyədə təmərküzləşmiş bazarlar (1500<HHİ<2500), yüksək səviyyədə təmərküzləşmiş bazarlar (HHİ>2500). HHİ-nin dəyəri 0-10000 arasında dəyişə bilər.

Sektorun öhdəlikləri artmışdır. Sektorun öhdəlikləri 6 ay ərzində ərzində 14% (32 mln. manat) artaraq 253 mln. manat təşkil etmişdir ki, artımın əsas səbəbi banklardan cəlb edilmiş öhdəliklərdir. Belə ki, yarımil ərzində banklardan əldə olunmuş kreditlərin həcmi 24% artaraq 66.3 mln. manat olmuşdur. Nəticədə, bank kreditlərinin öhdəliklərdə payı ötən ilin sonu ilə müqayisədə 2 f.b. artaraq 26.2%-ə çatmışdır. Kreditlər əsasən rezident banklar üzrədir. Dövr ərzində digər maliyyə institutlarına qarşı öhdəliklərin həcmi 1.8 mln. manat və ya 8% artsa da, öhdəliklərdə payı 0.5 f.b. azalaraq 9.4% təşkil edib. Habelə, BOKT-lərin emissiya etdikləri qiymətli kağız portfelində 11 mln manat artım müşahidə olunsa da, buraxılmış qiymətli kağızların cəmi öhdəliklərdə payı 2 f.b. azalaraq 22.4% təşkil edir. Qiymətli kağızlarda artım məhdud sayda BOKT-də cəmləşmişdir. Son 6 ay ərzində sektorun xarici borcu 23% (3 mln. manat) artaraq 17 mln. manat olmuşdur.

Qrafik 63. BOKT-lərin öhdəliklərinin dinamikası, mln. manatla



Mənbə: AMB

İqtisadi aktivliyin bərpası fonunda kredit portfelinin keyfiyyətində yaxşılaşma müşahidə edilmişdir. Belə ki, ilin ilk yarısında sektorun qeyri-işlək kredit portfeli 2.4% azalaraq 67.5 mln. manat təşkil etmişdir. Sektor üzrə QİK əmsalı 18.3% təşkil edir. Qeyri-işlək kreditlər əsasən biznes sektorunda cəmlənmişdir. Belə ki, istehlak kreditləri üzrə QİK portfelinin həcmi 27.4 mln. manat (QİK əmsalı 13%), biznes kreditləri üzrə isə QİK portfelinin həcmi isə 38.1 mln. manat (QİK əmsalı 27%) təşkil edir.

Sektor mənfəətlə fəaliyyət göstərir. 2022-ci ilin ilk yarımilliyində sektor 13.9 mln. manat mənfəət generasiya edib ki, analoji göstərici ötən ilin müvafiq dövründə 1.5 mln. manat zərər təşkil edirdi. İlin ilk yarımilliyinin sonuna sektorun ROA və ROE göstəriciləri müvafiq olaraq 3.2% və 7.4% təşkil etmişdir.

Qrafik 64. BOKT-lərin mənfəət göstəriciləri



Mənbə: AMB

Sığorta sektoru

2022-ci ilin ilk yarısının sonuna olan məlumatlara əsasən Azərbaycan sığorta bazarında 20 sığorta və bir təkrarsığorta şirkəti fəaliyyət göstərir. Sığorta şirkətlərindən 5-i həyat, 15-i isə qeyri-həyat sığorta şirkətidir. Sığorta sektorunun fəaliyyəti həmçinin 28 sığorta brokeri və 672 sığorta agenti vasitəsilə təmin edilmişdir.

Sığorta haqlarında ümumi artım dinamikası müşahidə edilmişdir. 2022-ci ilin I yarımilində toplanmış sığorta haqları ötən ilin müvafiq dövrünə nisbətdə 8.7% (39 mln. manat) artaraq 492 mln. manata çatmışdır. Artım könüllü sığorta növləri üzrə olmuşdur. Belə ki, dövr ərzində könüllü sığorta növləri üzrə artım 20.4% (62 mln. manat) olmuşdur. İcbari sığorta növləri üzrə isə 15.5% (23 mln. manat) azalma müşahidə edilmişdir. Könüllü sığorta növləri üzrə artımın əsas drayveri kimi həyatın yaşam sığortası çıxış etmişdir. Belə ki, 62 mln. manat artımın 51 mln. manatı yaşam sığortasının payına düşür. Ümumilikdə son 5 il ərzində sığorta haqları 78% (215 mln. manat) artmışdır. Belə ki, həyat sığorta sinifləri üzrə yığılmış sığorta haqqı 136% (142 mln. manat), qeyri-həyat sığorta sinifləri üzrə isə 43% (74 mln. manat) artmışdır.

Qrafik 65. Sığorta haqlarının dinamikası, mln. manatla



Mənbə: AMB

2022-ci ilin I yarımilində sığorta ödənişlərində azalma müşahidə edilmişdir. Belə ki, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ödənişlər 29.5% (73 mln. manat) azalaraq 175 mln. manat olmuşdur. Azalma əsasən həyat sığortası sinifləri üzrə ödənişlər hesabına olmuşdur. Belə ki, il ərzində həyat sığortası sinifləri üzrə ödənişlər 40% (57 mln. manat) azalaraq 85 mln. manat olmuşdur ki, bu da 2019-cu ildən etibarən dövlət güzəştlərinin azalması fonunda yığımlarda yaranan azalmanın təsiri nəticəsində müvafiq qaydada ödənişlərdə azalma ilə əlaqədardır. Qeyri-həyat sığortası sinifləri üzrə ödənişlər isə 15% (17 mln. manat) azalaraq 90 mln. manat təşkil etmişdir. Qeyri-həyat sığortası sinifləri üzrə ödənişlərdə azalmanın əsas drayveri dövlət icbari sığortasının DSMF-nin balansına verilməsi olmuşdur. Eyni zamanda, bu azalmanı yumşaldan faktor kimi AVSMMİS* və

* *AVSMMİS - Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası*

tibbi sığorta üzrə hadisə saylarındakı artımın təsiri nəticəsində yaranan ödənişlərin artımı çıxış edir.

Qrafik 66. Sığorta ödənişlərinin dinamikası, mln. manatla



Mənbə: AMB

- ***Sığorta sinifləri üzrə yığılmış haqların strukturu:***

Həyat sığortası sinifləri üzrə həyatın yaşam sığortası sinfinin aparıcı sinif kimi çıxış edir (192 mln. manat olmaqla, cəmi h/s haqlarının 78%-i). 2021-ci ilin iyun ayı ilə müqayisədə əsas artım məhz bu sığorta növündə müşahidə edilmişdir (36.2% və ya 51 mln. manat artım).

Qeyri-həyat sığortası sinifləri üzrə könüllü tibbi sığorta (78 mln. manat olmaqla, cəmi q/h haqların 32%-i), avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (48 mln. manat olmaqla, cəmi q/h haqların 20%-i) və daşınmaz əmlakın icbari sığortası sinifləri (35 mln. manat olmaqla, cəmi q/h haqların 14%-i) əsas paya sahibdirlər. Qeyri-həyat sığortası sinifləri üzrə əsas artım hava nəqliyyatı vasitələrinin könüllü sığortası (+72%, +2.97 mln. manat), könüllü tibbi sığorta (+10.4%, +7.3 mln. manat), daşınmaz əmlakın icbari sığortası (+ 10.1%, + 3.2 mln. manat) üzrə olmuşdur.

Qrafik 67. Həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

** İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta*

Qrafik 68. Qeyri-həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

- ***Sığorta sinifləri üzrə ödənişlərin strukturu***

Həyat sığortası sinifləri üzrə ödənişlərin də strukturunda həyatın yaşam sığortası əsas sinif kimi çıxış edir. Həyatın yaşam sığortası üzrə ödənişlərdə ötən illə müqayisədə 41% azalma müşahidə edilsə də, bu sığorta sinfi həyat sığortası üzrə cəmi ödənişlərin (85 mln. manat) 96%-ni (81 mln. manat) təşkil etmişdir.

Qrafik 69. Həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

Qeyri-həyat sığortası sinifləri üzrə ödənişlərdə əsas pay avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (42 mln. manat, q/h ödənişlərin 46.3%-i), könüllü tibbi sığorta (37 mln. manat, q/h ödənişlərin 41%-i) və avtonəqliyyat vasitələrinin sığortası (8 mln. manat, q/h ödənişlərin 9.3%-i) növlərinə aiddir. 2021-ci ilin iyun ayı ilə müqayisədə ödənişlərdə artım da məhz bu sığorta sinifləri üzrə baş vermişdir. Belə ki, avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə ödənişlər 30.2%, könüllü tibbi sığorta üzrə ödənişlər 16.1% və avtonəqliyyat vasitələrinin sığortası üzrə ödənişlərdə 15.2% artım müşahidə edilmişdir.

Qrafik 70. Qeyri-həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

Sığorta sektorunda siniflər üzrə təmərküzləşmə mövcuddur. Sığorta haqlarının yarısından çoxu 3 sığorta sinfi üzrə toplanır. Belə ki, 2022-ci ilin ilk yarısında əsas sığorta siniflərinin ümumi haqlarda payı 65% təşkil etmişdir.

Qrafik 71. Sığorta siniflərinin haqlar üzrə strukturu



Mənbə: AMB

Sığorta haqlarının ÜDM-də payında azalma müşahidə edilsə də, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə adambaşına düşən sığorta haqqı artmışdır. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə sığorta haqlarının ÜDM-də payı 0.36 f.b. azalaraq 0.78% olmuşdur. Əmsalın azalması post-pandemiya dövründə ÜDM-in artımının sığorta haqlarında olan artımla müqayisədə daha sürətli olmasıdır. Ümumilikdə, sığorta sektorunun penetrasiya göstəriciləri bençmark ölkələrlə müqayisədə aşağı səviyyədədir. Sığorta sektoru üzrə penetrasiyanın dərinləşdirilməsi Mərkəzi Bankın strateji fəaliyyətinin əsas istiqamətlərindəndir. Belə ki, sığorta sektorunun inkişaf strategiyasına əsasən rəqəmsal xidmətlərin artırılması və rəqəmsal həllərin tətbiqi sektorun rəqəmsallaşmasını artırmaqla penetrasiyanın artmasını dəstəkləyəcəkdir. Eyni zamanda, sığorta sahəsində genişmiqyaslı maarifləndirmə tədbirlərinin icrası, sığorta sektoruna güvənin artırılması məqsədilə effektiv bazar infrastrukturunun təkmilləşdirilməsi və müasir korporativ idarəetmənin tətbiq edilməsi növbəti illərdə penetrasiyanın daha da artmasını şərtləndirəcəkdir.

Qrafik 72. Sığorta sektorunun penetrasiya səviyyəsi



Mənbə: AMB

İlin əvvəli ilə müqayisədə sektorun aktivləri 11% (148 mln. manat) artaraq 1 473 mln. manat təşkil edib[14]. Yarımil ərzində qeyri-həyat sektorunun aktivləri 2% (12 mln. manat) artaraq 695 mln. manat, həyat sektorunun aktivləri isə 18% (99 mln. manat) artaraq 642 mln. manat olmuşdur. AzRe-nin aktivləri isə 37% artaraq 136 mln. manat təşkil etmişdir.

Qrafik 73. Sığorta sektorunun aktivləri, mln. manatla



Mənbə: AMB

Sığorta sektorunun aktivləri əsasən dövlət qiymətli kağızlarına və banklardakı vəsaitlərə investisiya edilmişdir. Ümumilikdə sığorta sektorunun aktivlərinin 77%-i investisiya portfeli təşkil edir. Belə ki, aktivlərin 36%-i (526 mln. manat) dövlət qiymətli kağızları, 29%-i (424 mln. manat) banklardakı vəsaitlər, 6%-i (84 mln. manat) isə qeyri-dövlət qiymətli kağızlardan ibarətdir. Sığorta sektorunun dövlət qiymətli kağızlar portfelinin 64%-i həyat sığorta şirkətləri üzrədir. Həyat sığorta şirkətlərinin investisiya portfeli əsasən həyatın yaşam sığortası hesabına formalaşır. Bütövlükdə sığorta şirkətlərin investisiya portfelinin 97%-i Azərbaycanda cəmləşmişdir. Xaricə investisiya

[14] Təhlil lisenziyası ləğv olan sığorta şirkətləri nəzədə alınmadan, fəaliyyətdə olan 20 sığortaçı və 1 müstəsna təkrarsığortaçı üzrə aparılmışdır.

edilmiş aktivlərin balans dəyəri hesabat dövrünə 36 mln. manat təşkil etmişdir ki, burada da Türkiyə və Gürcüstan əsas yerləri tutmaqdadır.

Qrafik 74. Aktivlərin komponentlərinin dinamikası, mln. manatla



Mənbə: AMB

İlin ilk yarısında sığortaçıların yerli banklarda depozitlərində artım müşahidə edilmişdir. Yarımil ərzində sığorta sektorunun yerli banklarda depozitləri 2% (8.6 mln. manat) artaraq 379 mln. manat olmuşdur.

Qrafik 75. Sığorta şirkətlərinin yerli banklarda vəsaitləri, mln. manatla



Mənbə: AMB

Sektorun mənfəətliliyi əsasən həyat sığorta şirkətləri hesabına formalaşır. İl ərzində həyat sektorunun mənfəətliliyi artmışdır. Belə ki, sektorun xalis mənfəəti (47% və ya 11 mln. manat) artaraq 34 mln. manat təşkil etmişdir. Mənfəətlilik əsasən yarımil ərzində əməliyyat gəlirlərinin 53 mln. manat artımı, əməliyyat xərclərinin isə 57 mln. manat azalması hesabına təmin edilib. Mənfəətliyə mənfi təsir edən amil isə 97 mln. manat məbləğində ehtiyatların dəyişməsi olmuşdur. Qeyri-həyat sektorunun mənfəətliyi isə 31% (4.6 mln. manat) artaraq 19.4 mln. manat təşkil etmişdir. Bu artımın əsas drayveri kimi xalis sığorta ehtiyatında dəyişmələrin ötən illə müqayisədə 56% (38 mln. manat) azalması çıxış etmişdir. Eyni zamanda, əsas əməliyyat xərclərinin 7.8 mln. manat azalması və digər gəlirlərin 2.7 mln. manat artması xalis mənfəətin artımını şərtləndirmişdir.

Eyni zamanda, sığorta sektoru üzrə ROA əmsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0.6 f.b. azalaraq 5.8% olmuşdur.

Qrafik 76. Həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln. manatla



Mənbə: AMB

Qrafik 77. Qeyri-həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln. manatla



Mənbə: AMB

2022-ci ilin ilk yarısında ötən ilin müvafiq dövrü ilə müqayisədə ən yüksək zərərli 3 sinif üzrə zərərlilik əmsalının artımı müşahidə edilmişdir. Qeyd edək ki, artım əsasən avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sinfi üzrə müşahidə olunmuşdur. Artım ötən ilin müvafiq dövrü ilə müqayisədə 22 f.b. təşkil etmişdir. Avtonəqliyyat vasitələrinin könüllü sığortası üzrə bu göstərici 3.6 f.b. azalsa da, könüllü tibbi sığorta üzrə 11.1 f.b. artmışdır. Bütövlükdə, ən zərərli 3 sinfin ümumi zərərlərdə payı 8.3 f.b. artaraq 60.8%-ə çatmışdır.

Qrafik 78. Sığorta sektorunun yüksək zərərli 3 sığorta sinfi



Mənbə: AMB

Ötən ilin müvafiq dövrü ilə müqayisədə daxil olmuş və ötürülmüş təkrarsığorta haqlarında artım, təkrarsığorta ödənişlərində isə azama müşahidə edilmişdir. Belə ki, hesabat dövrü ərzində ümumi daxil olan təkrarsığorta haqları keçən ilin eyni dövrü ilə müqayisədə 8% və ya 1.4 mln. manat artaraq 18.5 mln. manat, təkrarsığorta ödənişləri 85% və ya 24 mln. manat azalaraq 4.3 mln. manat, ötürülən (köçürülmüş) təkrarsığorta haqları isə 6% və ya 3 mln. manat artaraq 50 mln. manat təşkil etmişdir. Yığılmış təkrarsığorta haqlarınn 17 mln. manatı müstəsna təkrarsığortaçı, 1.5 mln. manatı isə təkrarsığorta lisenziyası olan sığortaçılar tərəfindən, toplanmışdır. Sığortaçılar tərəfindən yığılmış haqların 100%-i, müstəsna təkrarsığortaçı üzrə isə 60%-i daxili bazardan formalaşmışdır. Təkrarsığorta ödənişlərinin isə 1 mln. manatı sığortaçılar, 3.3 mln. manatı isə müstəsna təkrarsığortaçı tərəfindən həyata keçirilmişdir. Sığortaçılar bu ödənişlərin 71%-ni daxilə, müstəsna təkrarsığortaçı isə 72%-ni xaricə etmişdir.

Ötürülmüş təkrarsığorta haqlarına münasibətdə isə, sığortaçılar bu haqların 61%-ni və ya 29 mln. manatını, müstəsna təkrasığortaçı isə 95%-ni və ya 3 mln. manatını xaricə göndərmişdir. Hesabat dövründə ən çox Böyük Britaniya, Norveç və Almaniya kimi ölkələrə sığorta riskləri transfer edilmişdir. Ən çox təkrarsığortaya göndərilən sığorta riskləri hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası (ümumi riskin 42%-i), daşınmaz əmlakın icbari sığortası (ümumi riskin 21%-i), əmlakın yanğından və digər risklərdən sığortası (ümumi riskin 19%-i) və su nəqliyyatı vasitələrinin sığortası (ümumi riskin 5%-i) sinifləri üzrə olmuşdur.

Cədvəl 3. Təkrarsığorta fəaliyyətinə dair statistik məlumat

Sığortaçılar üzrə	**TS haqqı (alınmış)**		**TS ödənişi (verilmiş)**		**TS haqqı (ötürülmüş)**	
	Daxildən	Xaricdən	Daxilə	Xaricə	Daxilə	Xaricə
2021 (II rüb)	2.7	0.1	0.6	0.0	16	29
2022 (II rüb)	**1.5**	**0.0**	**0.7**	**0.3**	**18**	**29**

Müstəsna təkrarsığortaçı üzrə	**TS haqqı (alınmış)**		**TS ödənişi (verilmiş)**		**TS haqqı (ötürülmüş)**	
	Daxildən	Xaricdən	Daxilə	Xaricə	Daxilə	Xaricə
2021 (II rüb)	9.9	4.5	27.3	0.1	0.05	3.0
2022 (II rüb)	**9.8**	**7.2**	**0.9**	**2.4**	**0.2**	**3.0**

Cəmi	**TS haqqı (alınmış)**		**TS ödənişi (verilmiş)**		**TS haqqı (ötürülmüş)**	
	Daxildən	Xaricdən	Daxilə	Xaricə	Daxilə	Xaricə
2021 (II rüb)	12.6	4.6	27.9	0.1	16.05	32
2022 (II rüb)	**11.32**	**7.17**	**1.63**	**2.71**	**20**	**32**

Mənbə: AMB

Sığorta sektoru kapitalı tələb olunan məcmu kapital normativlərini üstələyir. Ümumilikdə, 2022-ci ilin ilk yarımilinin sonuna sığorta sektorunun (müstəsna təkrarsığortaçı ilə birlikdə) balans kapitalı 489 mln. manat, məcmu kapitalı isə 298 mln. manat təşkil edib. Həyat sığortası üzrə məcmu kapital tələb olunan kapitaldan 1.8 dəfə (44 mln. manat) yüksək olaraq 101 mln. manat təşkil etmişdir. Analoji göstərici qeyri-həyat sektoru üçün isə 1.4 dəfə (40 mln. manat) yüksək olaraq 147 mln. manat təşkil etmişdir. Sektorun maliyyə dayanıqlığının gücləndirilməsi və kapitalın risk əsaslı hesablanılmasının təmini məqsədilə Solvency II standartları üzrə metodoloji çərçivənin hazırlanması sığorta sektorunun inkişafı proqramının əsas prioritetlərindəndir.

Qrafik 79. Məcmu və tələb olunan kapitalın dinamikası, mln. manatla



Mənbə: AMB

Kapital bazarı

2022-ci ilin I yarımili ərzində qiymətli kağızlar bazarında kiçilmə müşahidə edilsə də, korporativ qiymətli kağızların dövriyyəsində artım qeydə alınmışdır. Belə ki, qiymətli kağızlar bazarının ümumi ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3.5% azalaraq 8.2 mlrd. manat olmuşdur. Qiymətli kağızlar bazarında azalma dövlət qiymətli kağızları hesabına olmuşdur. Belə ki, dövlət qiymətli kağızlarının dövriyyəsi 14% və ya 730 mln. manat azalmışdır. Eyni zamanda, korporativ qiymətli kağızlarının dövriyyəsində 89% və ya 376 mln. manat, repo əməliyyatları üzrə ticarət dövriyyəsində isə 2% və ya 46 mln. manat artım müşahidə edilmişdir.

Qrafik 80. Kapital bazarının dövriyyəsi, mlrd. manatla



Mənbə: AMB

Qrafik 81. İlkin və təkrar bazar əməliyyatlarının həcmi, mlrd. manatla



Mənbə: AMB

Tədavüldə olan dövlət istiqrazlarının həcmi artmışdır. Belə ki, tədavül müddəti daha uzun olan dövlət istiqrazlarının emissiyası nəticəsində tədavüldə olan dövlət istiqrazlarının həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12% artaraq, 2.8 mlrd. manata yüksəlmişdir. Bununla belə, cari ilin ilk yarımilində dövlət istiqrazlarının dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 42% azalaraq 0.9 mlrd. manat olmuşdur.

Qrafik 80. Tədavüldə olan dövlət istiqrazlarının həcmi, mln. manatla



Mənbə: AMB

Korporativ qiymətli kağızlar bazarın həcmi artmışdır. Korporativ qiymətli kağızlar bazarının canlandırılması istiqamətində aparılan stimullaşdırıcı tədbirlər bazarın bu seqmentində aparılmış əməliyyatların həcminin artmasına imkan vermişdir. Cari ilin ilk yarımilində korporativ qiymətli kağızların yerləşdirilməsi üzrə ilkin bazar əqdlərinin həcmi 63% artaraq 510 mln. manat, təkrar bazar əməliyyatları isə 2 dəfədən çox artaraq 287 mln. manat təşkil etmişdir.

Qrafik 81. Korporativ qiymətli kağızların ticarət həcmi, mlrd. manatla



Mənbə: AMB

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasına uyğun olaraq korporativ qiymətli kağızlar bazarının dərinliyinin artırılması üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi, institusional inkişafı və infrastruktur imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, emitentlərin və investorların kapital bazarına çıxış imkanlarının artırılması istiqamətində iqtisadi və fiskal stimulların müəyyən edilməsi məqsədilə kapital bazarında stimullaşdırıcı vergi rejiminin yaradılması istiqamətdə 13 may 2022-ci il tarixində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilmişdir. Dəyişikliklərə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə müvafiq olaraq ödənilən dividend, diskont və faiz gəlirləri vergidən azad edilir. Eyni zamanda, istiqrazlar üzrə faiz vergisinin hesablanması beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilmişdir. Mərkəzi Bank kapital bazarının inkişaf etdirilməsi məqsədilə fəaliyyət istiqamətinə uyğun olaraq, hüquqi çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması, bazar infrastrukturunun təkmilləşdirilməsi, həmçinin bazarda tələb və təklifin dəstəklənməsi üzrə işlər aparır.

Kapital bazarının institusional inkişafı üzrə çağırışlar eyni zamanda bazar infrastrukturunun müasirləşdirilməsini tələb edir. Bu istiqamətdə kapital bazarında ticarət və ticarətsonrası əməliyyatları əhatə edən mərkəzləşdirilmiş əməliyyat sisteminin qurulması istiqamətində işlər davam etdirilir. Eyni zamanda Mərkəzi Bank, Milli Depozit Mərkəzi və Bakı Fond Birjası arasında qiymətli kağızların emissiyası prosesinin elektronlaşdırılması üzrə vahid portalın qurulması üzrə işlər tamamlanmaqdadır. Sistemin tətbiqi ilə qiymətli kağızların qeydiyyatı üzrə proseslərin vahid pəncərə sistemi ilə elektron qaydada həyata keçirilməsi mümkün olacaqdır.

İnvestisiya şirkətlərinin aktivlərində cüzi azalma müşahidə olunsa da, gəlirliyində əhəmiyyətli artım müşahidə olunmuşdur. 2022-ci ilin ikinci rübündə investisiya şirkətlərinin aktivləri 77.4 mln. manat təşkil etmişdir. Yarımil ərzində bir investisiya şirkətinə investisiya xidmətlərinin göstərilməsi üçün lisenziya verilmiş və investisiya şirkətlərinin sayı 13-ə çatmışdır. Bununla yanaşı, investisiya şirkətlərinin müştəri bazası genişlənmişdir. 2022-ci ilin II yarımilində müştəri aktivləri 17% artaraq 1.0 mlrd. manat olmuşdur. İnvestisiya şirkətlərinin xalis mənfəəti əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2.5 dəfə artaraq 4.9 mln. manata çatmışdır.

Qrafik 82. İnvestisiya şirkətlərinin müştəri aktivlərinin dinamikası, mln.manatla



Mənbə: AMB

Qrafik 83. İnvestisiya şirkətlərinin mənfəətliliyi



Mənbə: AMB

Qrafik və Cədvəllər

Qrafik 1. ÜDM-in artım proqnozları, faizlə 7
Qrafik 2. Əmtəə qiymətlərinin dəyişməsi, faizlə 8
Qrafik 3. Geosiyasi risk indeksi 10
Qrafik 4. Regional geosiyasi risklərin maliyyə sabitliyinə mümkün təsir kanalları.....11
Qrafik 5. Qeyri-neft sektoru sahələrinin iqtisadi artım tempi.....12
Qrafik 6. Orta aylıq nominal əməkhaqqının illərin müəyyən dövrünə görə dəyişməsi, manatla..13
Qrafik 7. Dövlət büdcəsinin gəlir və xərcləri, mlrd. manatla 14
Qrafik 8. Əsas vəsaitə investisiyaların strukturu 14
Qrafik 9. İdxal və ixracın dinamikası, mlrd. ABŞ dolları 15
Qrafik 10. Mərkəzi Bankın və Dövlət Neft Fondunun valyuta ehtiyatları, mlrd. ABŞ dolları 15
Qrafik 11. Orta illik inflyasiyanın müqayisəsi, faizlə 16
Qrafik 12. Bank sisteminin aktiv və öhdəliklərinin dinamikası, mlrd. manatla.....17
Qrafik 13. Bank sisteminin aktiv və öhdəliklərinin strukturunun dinamikası, mlrd. manatla 18
Qrafik 14. HHİ indeksi 18
Qrafik 15. BSFİ indeksi 19
Qrafik 16. Fiziki və hüquqi şəxslərin depozit portfelinin dinamikası, mlrd. manatla 20
Qrafik 17. Bank sektoru üzrə cəlb olunmuş vəsaitlərin strukturunun dinamikası, mlrd. manatla 21
Qrafik 18. Xarici borcun dinamikası, mln. ABŞ dolları.....21
Qrafik 19. Kredit portfeli və ÜDM-in artım tempinin müqayisəsi.....22
Qrafik 20. Kredit portfelinin illik artım tempinin müqayisəsi.....22
Qrafik 21. Kredit portfelinin strukturunun dinamikası, mlrd. manatla 23
Qrafik 22. Kredit portfelinin dinamikası, mln. manatla.....23
Qrafik 23. İstehlak kreditləri portfelinin ÜDM-ə nisbəti, HP trendi %-lə 24
Qrafik 24. Biznes portfelinin yarımillik dinamikası, mln. manatla.....24
Qrafik 25. MKOS subyektlərinə verilən kreditlərin dinamikası, mlrd. manatla 25
Qrafik 26. MKOS subyektlərinə verilmiş kreditlərin maliyyələşmə mənbələrinə görə strukturu ..25
Qrafik 27. Bank sisteminin risk xəritəsi.....26
Qrafik 28. Bank sektoru üzrə QİK portfelinin dinamikası.....30
Qrafik 29. QİK əmsalının ölkələr üzrə müqayisəsi 30
Qrafik 30. QİK portfelinin gecikmə müddətləri üzrə bölgüsü 31
Qrafik 31. İqtisadiyyatın sahələri üzrə QİK portfelinin strukturu 31
Qrafik 32. İstehlak portfeli üzrə borcalanların strukturu, faizlə 32
Qrafik 33. Orta borc yükünün dinamikası, manatla.....32
Qrafik 34. Restrukturizasiya edilmiş portfelin dinamikası 33
Qrafik 35. Restrukturizasiya portfelinin strukturu, mln. manat.....33
Qrafik 36. Depozit portfelinin dollarlaşması 35
Qrafik 37. Fiziki şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla.....35
Qrafik 38. Hüquqi şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla.....36
Qrafik 39. Kredit portfelinin xarici valyutada payı.....36
Qrafik 40. Kredit portfelinin valyuta strukturu və dinamikası, mlrd.manatla 37
Qrafik 41. Ölkələr üzrə likvid aktivlərin cəmi aktivlərdə payı göstəricisi.....38
Qrafik 42. Likvid aktivlərin strukturunun dinamikası, mlrd. manatla.....38
Qrafik 43. Likvid aktiv komponentlərinin likvid aktivlərdə payının dinamikası.....39
Qrafik 44. Likvid aktivlərin valyuta strukturunun dinamikası, mlrd. manatla 39

Qrafik 45. Aktiv və öhdəliklərin müddət strukturu.....40
Qrafik 46. Kredit portfelinin depozit portfelinə nisbəti göstəricisinin dinamikası 40
Qrafik 47. Bank sisteminin mənfəətliyi, mln. manatla.....41
Qrafik 48. Mənfəət və zərərlə işləyən bankların sayı və dinamikası, mln. manatla 41
Qrafik 49. Du-pont - ROE-in dekompozisiyası təhlili.....42
Qrafik 50. Sektor üzrə mənfəətin dekompozisiyası və dinamikası, mln. manatla.....43
Qrafik 51. Bank sektorunun səmərəlilik göstəriciləri 43
Qrafik 52. Qeyri-faiz xərclərinin strukturu 44
Qrafik 53. Qeyri-faiz xərclərinin artım tempi 44
Qrafik 54. Faiz gəlirlərinin strukturu.....45
Qrafik 55. Faiz xərclərinin strukturu.....45
Qrafik 56. Kapital adekvatlığının dinamikası, mln. manatla 46
Qrafik 57. Kapitalın strukturunun dinamikası, mln. manatla.....47
Qrafik 58. Risk üzrə ölçülmüş aktivlərin risk kateqoriyalarına görə bölgüsü, mlrd. manatla.....47
Qrafik 59. Aktivlər və RÜÖA-nın dinamikası.....48
Qrafik 60. Kredit portfelinin ÜDM-ə nisbəti, HP Trendi ilə 48
Qrafik 61. Bank olmayan kredit təşkilatlarının aktivlərinin dinamikası, mln. manatla.....51
Qrafik 62. BOKT-lərin kredit portfelinin strukturu, mln. manatla.....52
Qrafik 63. BOKT-lərin öhdəliklərinin dinamikası, mln. manatla 53
Qrafik 64. BOKT-lərin mənfəət göstəriciləri 54
Qrafik 65. Sığorta haqlarının dinamikası, mln. Manatla 55
Qrafik 66. Sığorta ödənişlərinin dinamikası, mln. manatla 56
Qrafik 67. Həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln. Manatla.....56
Qrafik 68. Qeyri-həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln. manatla.....57
Qrafik 69. Həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln. manatla.....57
Qrafik 70. Qeyri-həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln. manatla.....58
Qrafik 71. Sığorta siniflərinin haqlar üzrə strukturu.....59
Qrafik 72. Sığorta sektorunun penetrasiya səviyyəsi.....60
Qrafik 73. Sığorta sektorunun aktivləri, mln. manatla 60
Qrafik 74. Aktivlərin komponentlərinin dinamikası, mln. manatla 61
Qrafik 75. Sığorta şirkətlərinin yerli banklarda vəsaitləri, mln. manatla 61
Qrafik 76. Həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln. manatla.....62
Qrafik 77. Qeyri-həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln. manatla.....62
Qrafik 78. Sığorta sektorunun yüksək zərərli 3 sığorta sinfi.....63
Qrafik 79. Məcmu və tələb olunan kapitalın dinamikası, mln. manatla.....64
Qrafik 80. Kapital bazarının dövriyyəsi, mlrd. manatla.....65
Qrafik 81.İlkin və təkrar bazar əməliyyatlarının həcmi, mlrd. manatla.....65
Qrafik 82. Tədavüldə olan dövlət istiqrazlarının həmi, mln. manatla.....66
Qrafik 83. Korporativ qiymətli kağızların ticarət həcmi, mlrd. manatla.....66
Qrafik 84. İnvestisiya şirkətlərinin müştəri aktivlərinin dinamikası, mln.manatla.....68
Qrafik 85. İnvestisiya şirkətlərinin mənfəətliliyi.....68

Cədvəl 1. Fiskal balansın və dövlət borcunun ÜDM-də payı, faizlə 9
Cədvəl 2. Bank sistemi üzrə seçilmiş əsas göstəricilər*, mln. Manatla 49
Cədvəl 3. Təkrarsığorta fəaliyyətinə dair statistik məlumat.....64

Azərbaycan Respublikası Mərkəzi Bankı

Tel.: (+99412) 493 11 22

http://www.cbar.az

Ünvan: *AZ1014, Bakı, R.Behbudov küçəsi, 90*